KAMRAN İMANOV

# MÜƏLLİF HÜQUQUNA HÖRMƏTİN AŞILANMASI: RƏQƏMSAL MÜHİTDƏ PİRATÇILIĞA VƏ KONTRAFAKTÇILIĞA QARŞI MÜBARİZƏ (AZƏRBAYCAN TƏCRÜBƏSİ)

Bakı – 2018

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**Müəllif hüququna hörmətin aşılanması: rəqəmsal mühitdə piratçılığa və kontrafaktçılığa qarşı mübarizə (Azərbaycan təcrübəsi). Bakı, 2018**

Bu kitab Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun Müəllif Hüquqları Agentliyinin Ümumdünya Əqli Mülkiyyət Təşkilatı ilə birgə 13-14 dekabr 2017-ci il tarixlərində keçirilən "Müəllif hüququna hörmətin aşılanması və rəqəmsal mühitdə piratçılığa və kontrafaktçılığa qarşı mübarizə" mövzusunda beynəlxalq konfransda etdiyi "Müəllif hüququna hörmətin aşılanması: rəqəmsal mühitdə piratçılığa və kontrafaktçılığa qarşı mübarizə (Azərbaycan təcrübəsi)" adlı çıxış sözü və prezentasiya əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, 2017, 2018**

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2018**

# Mündəricat


Çıxış sözü ..................................................... 5

Giriş ............................................................... 16

I. Müasir Copyright və rəqəmsal imperativ ....... 17

II. Qeyri-maddi sərmayə və əqli mülkiyyətin rolunun yenidən dərk edilməsi .................... 24

III. Dünyada, xüsusən də Azərbaycanda əqli mülkiyyət hüquqlarının təminatı vəziyyətinin və piratçılıq və kontrafaktçılıq səviyyəsinin statistikasının xülasəsi .................................. 30

IV Gələcəyə baxarkən (müəlliflik hüququna hörmətlə yanaşmanın formalaşması üzrə Agentliyin həyata keçirdiyi tədbirlər haqqında) ..................................................... 50

# Çıxış sözü

Hörmətli dostlar, xanımlar və cənablar, rəsmi qonaqlar!

Bugünkü beynəlxalq regional konfrans müəllif hüququna hörmətin aşılanması və rəqəmsal mühitdə piratçılığa və kontrafaktçılığa qarşı atılan addımlara həsr olunur. Tədbir Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) və Agentliyin əməkdaşlıq məhsuludur və yeri gəlmişkən, ÜƏMT-nın rəsmi nümayəndəsi, bölmə rəhbəri cənab İlya Qribkova öz təşəkkürümü bildirirəm və Baş direktor doktor F.Qarriyə Azərbaycan dövlətinə olan dostluq münasibətlərinə və diqqətinə görə bizim minnətdarlığımızı çatdırılmasını xahiş edirəm.

Xüsusi olaraq dinlənilməsi gözlənilən məruzələrə çəkilən zəhmətə görə ÜƏMT-nın hüquq məsələləri üzrə müşaviri cənab Tomas Dillona və Böyük Britaniyanın peşəkar hüquqşünası cənab Qvillim Harbotla təşəkkürümüzü bildirirəm.

Bununla yanaşı, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan olan xarici mütəxəssis qonaqlarımıza salamlarımızı və iştiraklarına görə minnətdarlığımızı çatdırıram.

Hörmətli azərbaycanlı dostlarımıza dəvəti qəbul etdiklərinə, ehtiram və diqqətlərinə görə rəğbətimizi ifadə edirəm.

Hörmətli konfrans iştirakçıları!

Dövlət başçımızın səyləri nəticəsində Azərbaycan getdikcə yeniləşir, iqtisadi islahatları reallaşdıran, iqtisadiyyatını diversifikasiya edən və innovativ inkişafa yol açan dövlətə çevrilir. 2009-cu ildən başlayaraq Azərbaycan yüksək-orta gəlirli ölkələr sırasındadır. Bu gün Azərbaycan özünə hörmətlə yanaşan, tərəfdaş dövlətlər arasında etibarlı tərəf müqabili adını qazanan, tolerantlıq və multi-

kultural ənənələri ilə səciyyələnən bir ölkədir, nüfuzlu beynəlxalq tədbirlərin ev sahibidir.

Azərbaycan reallıqları ölkənin qlobal reytinq göstəricilərinin yüksəlməsi ilə müşayiət edilir. Dünya İqtisadi Forumunun 2017-2018-ci illər üçün Qlobal Rəqabətqabiliyyətlilik İndeksinə əsasən, Azərbaycan öz mövqeyini möhkəmləndirərək, 37-ci yerdən 35-ci yerə yüksəlmişdir və bu göstəriciyə görə bir sıra inkişaf etmiş ölkələri üstələyərək, MDB məkanında şəriksiz liderdir.

Ölkə miqyasında aparılan islahatlar əqli mülkiyyət sahəsinə də öz müsbət təsirini göstərir. Belə ki, Rəqabətqabiliyyətlilik İndeksinin "Əqli mülkiyyətin qorunması" alt göstəricisi üzrə Azərbaycan 4,8 bal toplayaraq, 37-ci yeri tutur.

Bununla da Azərbaycan ötən dövrlə (2016-2017-ci illərlə) müqayisədə "Əqli mülkiyyətin qorunması" göstəricisi üzrə tutduğu 71-ci yerdən 34 pillə yüksələrək, MDB ölkələri sırasında lider mövqeyini möhkəmləndirmişdir.

"Əqli mülkiyyətin qorunması" ilə bağlı olan "İnnovasiyalar" mövqeyi üzrə Azərbaycan 33-cü yeri tutaraq, yenə də MDB məkanında liderdir. Cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə aparılan institusional islahatlar nəticəsində Müəllif Hüquqları Agentliyi yeni statusla bugünkü konfransda iştirak edir. Belə ki, Agentlik dövlət başçısı tərəfindən təsis edilən, dövlət və ictimai əhəmiyyət kəsb edən, işçiləri dövlət qulluqçularına bərabər tutulan və mərkəzi icra hakimiyyəti orqanı statusunda təminatları olan, müəlliflik hüququ, əlaqəli hüquqlar, Azərbaycan folkloru nümunələrinə (ənənəvi mədəni nümunələrə) və digər qeyri-maddi mədəni irs nümunələrinə, inteqral sxem topologiyalarına və məlumat toplularına əqli mülkiyyət hüquqları (yəni əqli mülkiyyət hüquqları) sahəsinin inkişafını təmin edən, bu sahədə vahid tənzimləməni və

nəzarəti həyata keçirən və fəaliyyəti əlaqələndirən publik hüquqi şəxsdir.

Elə bu çox aktual mövzulu tədbirin Bakıda keçirilməsini cənab Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanın müəllif-hüquq sisteminin beynəlxalq strukturlar tərəfindən inkişafının təzahürü və etirafı, gələcək nailiyyətlərə dəstək verməsi kimi böyük məmnunluq hissi ilə qəbul edirik.

Müasir dövrdə 5 qanundan (o cümlədən, "ƏMH təminatı və piratçılığa qarşı mübarizə" haqqında Qanun), 100-ə qədəri normativ-hüquqi sənədlərdən ibarət olan Azərbaycanın müasir müəllif-hüquq bazası mövcuddur. Ölkəmizin kreativ iqtisadiyyatının (müəlliflik və əlaqəli hüquqlara əsaslanan sənayemiz) ÜDM-dəki payı 5%-i ötüb, dünyanın orta səviyyəsindədir, hətta bir sıra inkişaf etmiş ölkələri geridə qoyur. Piratçılığa qarşı görülən tədbirlər nəticəsində 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi kitab satışı sahəsində 61%-dən 29%-ə, audio-video məhsul bazarında 90%-dən 65%-ə, proqram təminatında 96%-dən 75%-ə düşmüşdür.

Bütün beynəlxalq müqavilələrdə iştirak edən, 24 illik inkişaf yolu keçmiş müstəqil Azərbaycanın müəllif-hüquq sisteminə qiymət verilməsi nəticəsində Azərbaycan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Rəhbər Koordinasiya və Büdcə Komitələrində təmsil olunmuş, həmkarlarımız beynəlxalq ekspert səviyyəsində çıxış etmiş və nümayəndəmiz Müəllif hüququna dair ÜƏMT-nın Müqaviləsi Assambleyasının vitse-prezidenti seçilmişdir.

Hal-hazırda Müəllif Hüquqları Agentliyi tam kompüterləşmiş, tərkibində müasir texnologiyaları və avadanlığı, SMART-təlim distant sistemi, müasir Hüquqların Təminatı Mərkəzi və Rəqəmli Hüquqların İdarə Olunması Xidməti, yeni tələblərə uyğun olan mətbəə ilə təchiz edilmiş və

“Elektron Hökumət” portalına qoşulmuş, 5 növ dövlət xidmətini həyata keçirən strukturdur.

Bu sistemin, Prezident İ.Əliyev tərəfindən imzalanmış «Azərbaycan – 2020: Gələcəyə baxış» Konsepsiyasında özünəməxsus yeri mövcuddur, əqli mülkiyyət prioritet istiqamət kimi qəbul edilmiş və həmin unikal sənədin 6 bəndində əqli mülkiyyət sisteminin qarşısında qoyulmuş mühüm vəzifələr, xüsusən də piratçılığa qarşı addımlar öz əksini tapmışdır.

Hörmətli həmkarlar!

Yaşadığımız dövr texnologiyaların sıçrayışı dövrüdür, cəmiyyətin həyatında və iqtisadiyyatın inkişafındakı əhəmiyyətli texnoloji dəyişikliklər zamanıdır. Rəqəmli inqilabın nəticələri bütün sahələrdə yeni reallıq formalaşdırmış və rəqəmsal innovasiyalar «rəqəmsal imperativ» adlanan, yəni rəqəmsal texnologiyaların xüsusiyyətlərindən irəli gələn davranış qaydası yaradaraq, yeni tələblər irəli sürür. Üstəlik, rəqəmli məkanda informasiya axını həndəsi silsilə ilə artır, belə ki, hər gün 2,5 kvintilyon bayt həcmində verilənlər artmaqdadır. Bu isə o deməkdir ki, dünya miqyasında verilənlərin 90%-i yalnız son 2 ildə yaradılmışdır.

Yeni reallıq hüquqların kütləvi pozulmasına gətirib. Beynəlxalq sahə strukturlarının piratçılıq və kontrafaksiya miqyasına aid rəqəmlərə nə qədər ehtiyatla yanaşsaq da onların miqyas göstəriciləri narahat etməyə bilməz.

ICC (Beynəlxalq Ticarət Palatası) tərəfindən yaradılan BASCAP (Piratçılığa və kontrafaktçılığa qarşı Biznes-Koalisiya) və INTA (Əmtəə Nişanları üzrə Beynəlxalq Assosiasiyası) təşkilatlarının 2017-ci il tədqiqatlarına əsasən, göstərilir ki, əgər 2011-ci ildə pirat və kontrafakt məhsulların həcmi ildə 650 mlrd. ABŞ $-a çatırdısa, 2015-ci ildə 1,8 trln. ABŞ $-a qədər artıb.

İƏİT (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) məlumatına əsasən, 2013-cü ildə saxta və pirat məhsulları ilə ticarətin həcmi beynəlxalq ticarətin 2,5 %-i qədərdir (461 mlrd. ABŞ $), yəni 2008-ci illə müqayisədə 80% artmışdır. Frontier təşkilatının BASCAP üçün təqdimatındakı proqnozlar əsasında 2022-ci ildə bu rəqəm 991 mlrd. ABŞ $-a çatmalıdır. Bu təşkilatın məlumatına görə, musiqi və softverdə olan rəqəmli piratçılığın həcmi həmin müddətdə 213 mlrd. ABŞ $ idi və 2022-ci ildə 856 mlrd. ABŞ $-a çatmalıdır. Rəqəmli piratçılığın ən yayılmış üsulu P2P şəbəkələridir və 2015-ci ildə bu şəbəkə vasitəsilə 47,8 mlrd. qeyri-qanuni film yüklənməsi müşahidə olunub, BitTorrent şəbəkəsi vasitəsilə isə 2015-ci ildə 27,4 mlrd. qeyri-leqal musiqi treklərinin yüklənməsi aparılıb. Bunlar müəllif hüquqlarının qorunmasında, əqli mülkiyyət sahəsində mütləq nəzərə alınmalıdır.

Diqqət yetirək, beynəlxalq səviyyədə piratçılığa qarşı mübarizə illər boyu gedir, lakin dünya miqyasında həyata keçirilən tədbirlər, o cümlədən hüquqi addımlar hələlik istənilən səmərəliyi vermir: hüquqlar pozulmaqda qalır. Mübarizənin daha əlverişli nəticələrini almaq üçün “rəqəmli imperativ”in tələbləri nəzərə alınmalı, onun hüquqi tənzimləmə mexanizminə olan təsirini araşdırmalıyıq. Əqli mülkiyyət sahəsinə gələrək, etiraf etməliyik ki, ƏM-in dövriyyəsinə aid üsullar və alqoritmlər, hüquqların müdafiəsi ilə bağlı ənənəvi tədbirlər rəqəmli mühitdə mexaniki surətdə tətbiq oluna bilmir. Bundan əlavə, qorunan ənənəvi əsər və rəqəmsal şəklə çevrilən, yəni qorunan kontent arasında fərq var. Bir tərəfdən kontent informasiya təbiətinə görə özünə xas olan dövriyyəni təşkil edir və qaydalarla yaşayır, digər tərəfdən isə müəlliflik hüququ ilə qorunan əsərin forması zəifləyir və kontentin mahiyyətinə uyğun olaraq, əsərin məzmununun rolu artır.

İradəmizdən asılı olmayaraq, əşya çərçivəsindən azad olunan, müəlliflik hüququ ilə qorunan kontent fərdi qaydada davranır və bu, bir tərəfdən müsbət haldır: əsərlərin istifadəsi qloballaşır və bununla, ƏM hüquqlarına tələbat artır. Digər tərəfdən, qeyri-qanuni istifadə də artır, hüquqların pozulması nəzarət dairəsindən çıxır.

Hörmətli konfrans iştirakçıları!

Bildiyiniz kimi, hüquq yüzilliklər də olmasa, onilliklər boyu müəllif hüququ sahəsində siyasətin formalaşdırılmasında əsas vasitə hesab edilirdi. Lakin rəqəmsal mühitdə o kifayət qədər sərt, hətta məhdud bir vasitəyə çevrilir. Çünki müəllif hüququnun ərazi prinsipi fiziki aləmdəki təsirindən fərqli olaraq, rəqəmsal mühitdə, onun hərəkət həcminə və beynəlxalq çoxyurisdiksiyalı xüsusiyyətinə görə zəifləmişdir. Onun olduğu bu ərazi qəfəsindən isə iqtisadi və texnoloji institutlar artıq çıxıblar. İnternet mədəniyyəti bu gün elə bir durumdadır ki, onun təklif etdiyi platformalar davranışlara hüquq səviyyəsində, hətta ondan da artıq dərəcədə təsir edirlər.

Bir sözlə, müəllif hüququ sahəsində hüququn son hakimi, atributu olaraq özünün mövqeyini qoruması üçün o, bu platformalara və onların yaratdığı İnternet mədəniyyətinə yol açmalıdır. Və bu ənənəvi Copyright-ın böhran vəziyyətini yalnız cəzalandırmanın sərtləşməsinə arxalanan qaydaların arzu edilən nəticələrə gətirməməsi ilə təsdiqləyir. Heç də təsadüfi deyil ki, bu prinsiplərə əsaslanan, ACTA, PIPA və SOPA tipli piratçılığa qarşı mübarizə üzrə beynəlxalq və milli qanunverici təşəbbüslər hələ də qüvvəyə minməyib, HADOPI fransız qanununun təsiri isə dayandırılmışdır.

Mövqeyimi aydınlaşdırmaq istəyirəm. Vikipediya, Facebook, Myscape kimi, Web-2.0 çərçivəsində olan İnternet-servislər və platformalar, Youtube, yaxud Flickr bloqlar (Twitter), pirinq şəbəkələri P2P, fayl mübadiləsi

şəbəkələri (Bit Torrent) kimi və s. istifadəçi kontenti üçün olan platformalar informasiya mübadiləsi üzrə əlaqələri genişləndirir və müəllif hüquqlarının pozulmasını asanlaşdırır. Konkret istifadəçiyə yönəlmiş və "buludlu" hesablamalarla təchiz edilmiş qüvvəyə minən Web-3.0 isə daha çox inteqrasiya və transsərhəd informasiya məkanını təmin edəcək və buna görə də vəziyyəti daha da gərginləşdirəcək.

Bir sözlə, rəqəmsal texnologiyalar istifadəçilər üçün əlçatımlılıq üstünlükləri gətirib, hüquq sahibləri ilə aralarındakı tarazlıq istifadəçilərin xeyrinə pozulmuşdur.

Hörmətli iştirakçılar!

Müəllif Hüquqları Agentliyinin hüquq sahiblərinə, əsərlərinin istifadəsi ilə bağlı həyata keçirdiyi siyasətin basinda ölkə başçısının formalaşdırdığı sosial yönümlü dövlət durur. Bu isə o deməkdir ki, müəlliflərə çatası qonorar vaxtında, dəqiq və şəffaf formada verilməlidir. Əsərlərin, istifadəçi təşkilatların qonorar ödəmədən yayılmamasına və mütləq şəkildə müəlliflərin haqqına hörmətlə yanaşılmasına hökumətin yeniləşmiş qərarı xidmət edir. Bu qərar müəllif əsərlərinin bütün istifadə məkanlarına aiddir. Məsələyə aydınlıq gətirmək üçün mediada bir sıra izahedici məqalələr, TV-verilişləri Agentlik tərəfindən təşkil edilib, restoran və toy meydançaları üçün xüsusi bukletlər hazırlanıb. Bir sözlə, müəlliflərə əsərlərindən istifadənin dəyəri qaytarılmalıdır, bir daha bəyan edirik ki, əsərləri istifadə edən təşkilatlar qonorar yığan müəllif təşkilatları ilə lisenziya sazişləri bağlamalı və onlara riayət etməlidirlər.

Bununla yanaşı, mütəxəssislərin fikrincə, ictimai təşkilatların mövcud kollektiv idarə sistemi müasir tələbləri ödəmir. O ki qaldı əsərlərin rəqəmsal şəbəkədə istifadəsinə, onlar nəzarətdən kənardır. Bu səbəblərə görə Agentlik tərəfindən İnternetdə rəqəmli hüquqların idarə edilməsi sistemi yaradılıb və istifadəyə verilir. Hazırda bu sistemin

daha da təkmilləşdirilməsi məqsədilə blokçeyn texnologiyasına əsaslanan xüsusi platforma yaradılır. Bu müasir texnologiya kollektiv idarəetmədən daha əlverişli və ədalətli olan əsərlərin fərdi idarəetməsinə müasir texnoloji imkanlar əsasında qaytarılması deməkdir. Prezentasiyamızda dediklərim haqqında daha ətraflı məlumat veriləcək. İndi isə qeyd etməliyəm ki, blokçeyn-texnologiyası bir tərəfdən hamıya əlçatımlı olan əsərlərin reyestri və istifadə şərtlərini təqdim edir, şəbəkə iştirakçılarına fərdi qaydada istifadəni təşkil etmək və bununla müəllif qonorarının ödənilməsini optimallaşdırır, şəffaflaşdırır və hər bir ödəmə əməliyyatını yoxlamaq imkanını yaradır. Digər tərəfdən, vasitəçiləri aradan götürür, etimadı artırır və piratçılığa qarşı böyük sipər qoyur.

Hörmətli dostlar!

Xarici qonaqların konfransda iştirakını nəzərə alaraq, Azərbaycanın rastlaşdığı bir xüsusi növ piratçılıq haqqında danışmaya bilmərəm – söhbət erməni-hay plagiatçılığından, mənimsəmə və özününküləşdirməsindən və saxtakarlıqlarından gedir. Bir sözlə, söhbət xalqa məxsus olan əqli mülkiyyətin qorunmasından gedir.

Əcdadlarımızın bizə vəsiyyət etdiyi zəngin mədəni irsin təhriflərdən, mənimsəmə səylərindən müdafiəsi məsələsi bu gün maddi-mənəvi dəyərlərin qorunması çərçivəsindən çıxaraq, siyasi-hüquqi problemə çevrilmişdir. Odur ki, maddi-mənəvi dəyərlərin, qədim mədəniyyət nümunələrinin mənimsənilməsi faktları qloballaşma prosesini müşayiət edən «zərərsiz plagiat» cəhdləri kimi dəyərləndirilməməlidir. Bu gün ermənilər tərəfindən qonşu xalqlara, xüsusən azərbaycanlılara xas qədim abidələrin, folklorun, xalq musiqisinin, mətbəx nümunələrinin, xalçaların, rəqslərin, eləcə də musiqi alətlərinin məqsədli şəkildə mənimsənilmə cəhdləri heç də «mədəniyyətlərarası inteqrasiya prosesi»nin təzahürü deyildir. Belə səylərin

arxasında siyasi maraqların dayanması birmənalıdır. Məqsəd azərbaycanlılara məxsus maddi və qeyri-maddi mədəniyyət irsini, folklor nümunələrini, ənənəvi bilikləri özününküləşdirməklə, hayların güya Cənubi Qafqaz regionunun "avtoxton", «ən qədim köklü sakinləri» olmasına, «Böyük hay mədəniyyəti», «Böyük Ermənistan» xülyasının gerçəkləşdirilməsinə dair saxta «faktoloji materiallar» toplamaq və bu barədə beynəlxalq ictimaiyyətdə yanlış rəy yaratmaqdır.

Bir sözlə, erməni plagiatının kökləri ərazi iddiaları ilə sıx əlaqəlidir, işğal edilmiş Azərbaycan torpaqlarını imkan çərçivəsində özündə saxlayaraq, digər torpaqlara göz dikməkdədir. Lakin o da bir həqiqətdir ki, Azərbaycan folklorunun və ənənəvi biliklərinin oğurlanması ilə yanaşı, erməniçilik folklor yaradıcılığının bir növünə – mif yaradıcılığına çox meyllidir, bu bir növ «milli istedaddır». Bu yeni yaradılan mifologiya «böyük torpaqlar» stereotipini və qonşulara qarşı ərazi iddialarını bir-birinə bağlayır, məhz bu mifologiya qonşuların mədəni irsinin mənimsənilməsinə "təbiilik" verir, hətta "legitimlik" gətirir. Nəhayət, məhz bu, erməni xadimlərinin – istər siyasətçi, istər alim, istərsə də kütlə olsun, əxlaqını təyin edir. Ermənilərin "müstəsnalığı" haqqında yaradılmış mif və xarici aləmə qarşı "əzabkeşlik" tezisindən irəli gələn ambisiya və iddialar erməniçilik düşüncəsində təbii olan adilik rolunu hər cür aradan götürməyə çalışır, ermənilərin "xüsusi missiya"sının irəli sürülən stereotipi isə beynəlxalq hüququn müasir sülh quruculuğunun təməl daşı kimi tanınmasına maneə törədir.

Hörmətli dostlar!

Bu tendensiya çox xətalıdır, beynəlxalq cəmiyyətin firavan gələcəyi üçün bəlalı və problemlər yaradan bir fəsaddır. Odur ki, «Azərbaycan mədəni ənənələrinin özününküləşdirilməsi erməni-hay ənənəsi» və onun müasir residivlərinə sipər çəkilməlidir və çəkilir.

Hay-erməni saxtakarlıqlarını və uydurmalarını və erməniçilik mifomaniyasını qədim mətnlər və klassik mənbələrdəki tarixi sübutlarla, elmi dəlillərlə və danılmaz faktlarla ifşa etmək missiyası davam etdirilməlidir. Agentlik onlarla kitab və broşürlər hazırlayaraq, mütəxəssis və cəmiyyət nümayəndələri arasında paylaşdırıb.

Bununla yanaşı, digər əməli addımlar atılmalıdır və atılır da. Belə ki, 2003-cü ildə folklor nümunələrimizin hüquqi cəhətdən qorunması haqqında ölkəmizdə analoqu olmayan qanun qəbul edilmişdir. Azərbaycanın folklor nümunələrinin plagiata uğramasının əsasən Azərbaycandan kənarda baş verdiyini nəzərə alaraq, sözügedən Qanunun icrası ilə bağlı qərar qəbul edilmişdir ki, xarici dövlətlərin hüquqi və fiziki şəxsləri Azərbaycan folklor nümunələrindən istifadə üçün mütləq şəkildə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyindən icazə almalıdırlar. Bununla yanaşı, Agentlikdə milli irsimizin xəzinəsi sayılacaq zəngin "Folklor" elektron-məlumat bazası yaradılmışdır. Bu məlumatları qorumaq üçün tərəfimizdən folklor nümunələrinin qeydiyyatı ilə bağlı qaydalar hazırlanmışdır. Burada əsas məqsədimiz folklor nümunələrinin qeydiyyata alınması yolu ilə onların "pozitiv", yəni əqli mülkiyyət rejimində və "müdafiəli", yəni üçüncü şəxslər tərəfindən əqli mülkiyyət hüquqlarının alınmayacağını və qorunmasını təmin etməkdir.

Müəllif Hüquqları Agentliyinin cənab Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş yeni Nizamnaməsində vacib fəaliyyət istiqaməti kimi "əqli mülkiyyət hüquqları obyektlərinin, o cümlədən Azərbaycan xalqına məxsus olan folklor nümunələrinin (ənənəvi mədəni nümunələrin), ənənəvi biliklərin və digər qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunmasının təmin edilməsi, onların mənimsənilməsinin və onlardan istifadə ilə bağlı hüquqla-

rın pozulmasının qarşısının alınması və bununla bağlı müvafiq tədbirlər görülməsi” nəzərdə tutulmuşdur.

Eyni zamanda, ölkəmiz Ümumdünya Əqli Mülkiyyət Təşkilatının folklor nümunələrinin qorunması haqqında konvensiyasının tezliklə qəbul edilməsinin tərəfdarı olub və indi də belə bir konvensiyanın qəbul edilməsini vacib hesab edir.

Hörmətli konfrans iştirakçıları!

Sözümün sonunda qeyd etmək istəyirəm ki, rəqəmsal dövr çox şeyi dəyişdirib. Onun yaratdığı kontent bu gün, eyni zamanda, həm əsas məhsul, həm də rəqəmsal iqtisadiyyatın mənbəyi hesab olunur, eynilə rəqəmsal fayl kimi – bu, həm texnologiyadır, həm də istehsal yeri. Əqli mülkiyyətin dünyada bugünkü fəaliyyət konteksti onun yarandığı vaxtdan prinsipial olaraq fərqlənir. Yeni kontekst həm iqtisadiyyatda, həm də cəmiyyətdə əqli mülkiyyətin yerini dəyişdirərək, onu biliklərə əsaslanan iqtisadiyyatın dominantına, rəqəmsal cəmiyyətin vacib alətinə və mədəni irsin təhlükəsizliyinin təminatçısına çevirib. Əqli mülkiyyətin fəaliyyətinin dəyişmiş konteksti, eyni dərəcədə, əqli mülkiyyətə və onun roluna olan münasibətdə bizim düşüncə tərzimizin dəyişməsini tələb edir.

Bu və digər məsələlərin müzakirəsində uğurlar arzulayıram. Diqqətə görə təşəkkür edirəm.

## Müəllif hüququna hörmətin aşılanması: rəqəmsal mühitdə piratçılığa və kontrafaktçılığa qarşı mübarizə

(Azərbaycan təcrübəsi)

## GİRİŞ

- Əqli mülkiyyət hüquqlarına hörmətlə yanaşmanın formalaşması barədə düşünürkən, qanunauyğun olaraq, kontrafaksiya və piratçılığa qarşı mübarizə üsulları və vəzifələri ön plana çıxır. Müasir əqli mülkiyyət anlayışının ənənəvi dərk edilməsi şərti ilə bu bir həqiqətdir, çünki yaradıcı şəxslərin və hüquq sahiblərinin əqli mülkiyyətinə laqeyd münasibət nəticə etibarı ilə geniş mənada mədəniyyətin, iqtisadiyyatın inkişafına ciddi ziyan vurur.
- Bu da bir həqiqətdir ki, əqli mülkiyyət mədəniyyətinin formalaşması əqli mülkiyyət hüquqlarının mahiyyəti haqqında cəmiyyətin məlumatlandırılmasına daim diqqət, hüquq sahibləri, istifadəçilər, informasiya vasitəçiləri və həmin hüquqların qorunmasını təmin edən hüquq-mühafizə və məhkəmə orqanları da daxil olmaqla, ictimaiyyətin bütün təbəqələrinin səriştəlilik səviyyəsinin yüksəlməsi hesabına mümkün ola bilər.
- Eyni zamanda, əqli mülkiyyətin müasir anlayışı və funksional fəaliyyəti ictimai həyatda texnoloji yeniliklərlə əlaqədar olaraq, ənənəvi anlayışdan xeyli fərqlənir. Bu isə, öz növbəsində əqli mülkiyyət hüquqlarına laqeyd münasibət yaradan səbəb və faktorların üzə çıxarılmasını və ən əsası, müasir əqli mülkiyyətin inkişafında arzuolunmaz ssenarilərin qarşısını almaq üçün tədbirlərin hazırlanmasını tələb edir.

Mövcud təqdimatı da məhz bu həlledici məqamdan başlamaq istərdim.

***«Gələcəkdə texnologiyanın əqli mülkiyyətin beynəlxalq memarlıq formasını daha da çox diqtə və idarə etməsi qaçılmazdır»***
(Frensis Qarri, WIPO Magazine)

# I. Müasir Copyright və rəqəmsal imperativ

**1.** Texnologiyalar mövcud əqli mülkiyyət landşaftına getdikcə daha əsaslı təsir göstərəcək. Əqli mülkiyyət isə bu prosesə qarşı durmamalı, əksinə, uyğunlaşmalıdır. Bu yeniliklər özü-özlüyündə mənfi deyillər, əqli mülkiyyətin gələcək təkamülünü müəyyənləşdirmək üçün yenilikləri qəbul etmək və anlamaq lazımdır.

- ✓ *«İnternet hər şeyi dəyişir və əgər müəllif hüquqları bu yolda durursa, dəyişmək məcburiyyətinə məruz qalacaq»* (E.Sammuels).
- ✓ XIX-XX əsrlərin müəllif hüquqları tarixi daim dəyişən texnologiyalara (teleqraf, fotoaparat, radio, kompüter, yazıcı qurğular) uyğunlaşan hüquqi normaların adaptasiyasından ibarət olduğuna baxmayaraq, internet və internetdən qaynaqlanan informasiya texnologiyaları hüquq anlayışına ciddi təsir göstərə biləcək kardinal xüsusiyyətlərə malikdirlər.
- ✓ İnternetdə əqli mülkiyyət obyektlərinin qanuni istifadəsi artdıqca, ədəbi və musiqili əsərlərin hüquq sahibinin razılığı olmadan yayılması, kontrafakt malların ticarəti, ticarət nişanı hüquqları ilə mübahisə yaradan domen adların qeydiyyatı və s. kimi sərhəd tanımayan xarakterik qanun pozuntularının da sayı artmaqdadır. Bununla əlaqədar, əqli fəaliyyət nəticələrinə müstəsna hüquqların tətbiqi məsələsi qabarıq şəkildə üzə çıxır.
- ✓ Aydındır ki, internet istifadəçiləri yeni qarşılıqlı əlaqə platforması olan Web-2.0-ın hesabına, həmçinin, əzəldən müəllif hüquqlarının yaranmasına səbəb olan ənə-

nəvi əsərlərdən fərqli olaraq, rəqəmsal kontentin spesifikasının hesabına üstünlük əldə etməyə nail oldular. Beləliklə yaradıcıların stimullaşdırılması və onların lehinə fəaliyyət göstərən müəllif hüquqları obyektlərini yayımlayanlar və əsərləri internetdə istifadəçilər üçün əlçatan edənlər arasında balans pozulmuş oldu.

- ✓ Həqiqətən də Web-2.0 platforması daxilində Vikipediya, Facebook, Myspace kimi İnternet-servislər, Youtube və ya Flickr, bloqlar (Twitter) kimi istifadəçi kontentləri üçün platformalar, P2P kimi pirinq şəbəkələri, Bit Torrent kimi fayl-mübadiləsi şəbəkələri məlumat mübadiləsinə yönəlik qarşılıqlı fəaliyyəti genişləndirir və müəllif hüququnun pozulmasına təkan verir. Qüvvəyə minən və konkret istifadəçiyə yönələn Web 3.0 isə “bulud” hesablama təchizatı ilə informasiya məkanının transsərhədliliyini və daha böyük inteqrasiyanı təmin etməklə, mövcud vəziyyəti daha da dərinləşdirəcək.
- ✓ Bu prosesə paralel olaraq, rəqəmsal kontentə çevrilən əsərlər hüquqi cəhətdən dəyişikliyə məruz qalır. Birincisi, kontent mahiyyətcə informativ olduğu üçün informasiyanın tərkib əhəmiyyəti, yəni müəllif hüququ obyektinin məzmunu bu səbəbdən artmış olur, eyni zamanda müəlliflik hüquqları ilə qorunan forma anlayışı zəifləyir. İkincisi, yaradıcılığın fraqmentasiya, mikşetmə, sempl, meşaplama və s. kimi yeni rəqəmsal növləri əmələ gəlir ki, bu da əsərin formasını kontent şəklində təhrif edir. Belə halda müstəsna hüququn qadağa funksiyası da yaxşı işləmir, dəyər qanunu özünü qeyri-adi aparır, “nüsxə” və “kopiya” anlayışları öz mənasını itirir və önə “əlçatımlıq” anlayışı çıxır.
- ✓ **Bu səbəbdən də əqli mülkiyyət hüquqlarının ərazi xarakteri və internet şəbəkəsinin qlobal transsərhəd, kontentin informativ mahiyyəti arasında fundamental ziddiyyətin mövcud olması fikri təsadüfi**

**deyildir.** Bu ziddiyyətlər beynəlxalq mülki hüquq, Copyright anlayışına yeni yanaşma, beynəlxalq mühakimə və hüququn təyini və tətbiqi məsələlərinə toxunur. Məhz internet, kabel televiziyası və radiosu kimi elektron transsərhəd kommunikasiya vasitələrindən istifadə müstəsna hüququn pozulması ilə bağlı beynəlxalq mübahisələrə gətirib çıxarır. Bu məsələ ÜƏMT himayəsi altında aparılan araşdırmanın mövzusu olmuşdur.

**2.** Copyright-ın rəqəmsal problemləri ümumi rəqəmsal inqilab sayılan və əsasında ictimai proseslərin və istehsalatın rəqəmsallaşması duran yeni reallığın fonunda üzə çıxır.

- Yeni rəqəmsal dövr süni intellektin (AI) istifadəsi ilə inteqrasiya olunmuş sənaye şəbəkələrinin, sürətli internetin və sənaye internetinin (Internet of things) geniş yayılması, sosial şəbəkələrin və müxtəlif platformaların inkişafı, rəqəmsal mühitdə servislərin yaradılması, internet də daxil olmaqla, İT kommunikasiyalarının istifadəsi, insanın və robotun qarşılıqlı münasibətinin prinsipcə yeni mexanizmini əhatə edən kiberfiziki sistemlərin və neyrotexnologiyaların, qlobal məlumat bazalarının (big data) yığılması və işlənməsi, "ağıllı" bulud robototexniki kompleksləri və sənaye obyektləri (smart everything) üzrə avtomatik identifikasiya servislərin tətbiqi ilə ifadə olunur.
- Bununla belə, rəqəmsal məkanda informasiya axını həndəsi silsilə ilə artır. **Hər gün 2,5 kvintilyon bayt məlumat yaradılır və bu o deməkdir ki, dünyada mövcud olan bütün məlumatların 90% yalnız son 2 ildə əmələ gəlib.**
- Rəqəmsallaşma inkişaf edərək, yenilikləri və texnoloji innovasiyaları stimullaşdırır, onlar isə öz növbəsində rəqəmsal ekosistemdə internet şəbəkəsində şəxsi mə-

lumatların qorunması, kibertəhlükəsizliyin dəsətklənməsi, vətəndaşların əqli mülkiyyət və konstitusiya hüquqlarının müdafiəsi, rəqəmsal servislərin leqallığının dəstəklənməsi, kritik infrastruktur və bulud texnologiyalara dair məlumatların qorunması, özəl həyat toxunulmazlığının təminatı kimi hüquq xarakterli yeni mürəkkəb problemlər yaradır.

- Rəqəmsal paradiqma və onun müasir əqli mülkiyyətə təsiri haqqında **aşağıdakı düşüncələr yerinə düşərdi**. Bu mövzuda müzakirələri Böyük Britaniya 2010-cu ildə "Rəqəmsal iqtisadiyyat haqqında qanunu" qəbul etdikdən sonra Y.Xarqveyz başlamışdı. 2017-ci ildə isə həmin qanun dəyişdirildi və hal hazırda "UK Digital Economy Act" adı altında tanınır. Bu qanun IT kommunikasiyalar (Ofcom) sahəsində müəlliflik hüquqlarının qorunmasına nəzarət edən orqanın, həmçinin hüquq sahiblərinin, internet operatorlarının və internet istifadəçilərinin maraqlarının müdafiəsi zamanı məhkəmələrin səlahiyyətlərini genişləndirir (bax. Ian Hargreaves. Digital Opportunity: A Review of Intellectual Property and Crowth. London: HM Covernment, 2011. – C.53: http://www.ipo.gov.uk/ipreview-finalreport.pdf.; Digital Economy Act. 2017: http://www.legislation.gov.uk/ukpga/2017/30/pdfs/ukpga_20170030_en.pdf).
- Rəqəmsal innovasiyalar Kanta əsasən (yəni rəqəmsal texnologiyalardan qaynaqlanan təlim və davranış), mütəxəssislərin özünəməxsus imperativ adlandırdığı istiqamət və ya BCG (Boston Consulting Group) analitiklərinin adlandırdığı "rəqəmsal imperativ" yaradır. [bax. "Mastering the Digital Imperative". Digital BCG, 2017, https://www.bcg.com/expertise/digital-bcg/default.aspx].
- **Rəqəmsal imperativin qəbul edilməsi hansı nəticələrə gətirib çıxarır?**
- **Yuxarıda qeyd etdiyimiz kimi, rəqəmsal imperativ əqli mülkiyyət sahəsi də daxil olmaqla, ümumiyyət-**

**lə hüquqi tənzimləmə mexanizminə ciddi təsir göstərir. Hətta bəzən əqli mülkiyyət dövriyyəsinin üsul və alqoritmləri və əqli mülkiyyət hüquqlarının qorunması rəqəmsal mühitdə mexaniki cəhətdən tətbiq oluna bilmir. Müəlliflik hüququ ilə qorunan kontent mühafizə qatından azad olduqdan sonra öz kommersiya əhəmiyyətini artırır, çünki onun dünyanın istənilən yerinə çatdırılması cüzi xərc tələb edir və həmin kontent əlavə istehlakçı xüsusiyyətlərinə malik olur. Kontentin bu xüsusiyyəti əsərin istifadəsinin qloballaşmasını, o cümlədən qeyri-qanuni istifadəsini şərtləndirir, eyni zamanda mədəniyyətin, elmin, təhsilin, biznesin və əyləncənin investisiya dəyərini artırır.**

- Bəllidir ki, hüquq uzun illərdir ki, müəllif hüquqları sahəsində siyasəti formalaşdıran əsas vasitə rolunda çıxış edir. Lakin rəqəmsal mühitdə, F.Qarrinin qeyd etdiyi kimi, hüquq çox sərt və məhdud alətə çevrildi, çünki geniş trafikli rəqəmsal mühitdə beynəlxalq, çoxyurisdiksiyalı xarakterə malik olan müəllif hüquqlarının ərazi prinsipi fiziki həyatda təsirinə nisbətən xeyli zəifləmiş oldu. Halbuki hüququn düşdüyü ərazi qəfəsini iqtisadi və texnoloji institutlar artıq tərk etmişlər. Bu gün internet mədəniyyətinin təqdim etdiyi platformalar davranışa hüquq səviyyəsində, hətta hüquqdan da ziyadə təsir göstərə bilir. Bu o deməkdir ki, əgər siyasətdə hüquq sonuncu arbitr mövqeyini qorumaq istəyirsə, müəlliflik hüququ sahəsində hüquq internet platformaları və onlardan yaranan internet mədəniyyəti ilə öz yerini bölüşməlidir. Bu gün ənənəvi kopirayt-ın böhranı dediklərimizi təsdiq edir və artıq biz görürük ki, ənənəvi müəlliflik hüquqlarının yalnız sərtləşdirmə modeli lazımi nəticə vermir. Heç də təsadüfi deyil ki, piratçılığa qarşı mübarizənin gücləndirilməsi üzrə ACTA, PİPA və

SOPA kimi beynəlxalq və milli qanunvericilik təşəbbüsləri sərtləşdirmə prinsipinə söykəndiyinə görə qüvvəyə minə bilmədi, fransızların qaydaları pozanlara qarşı 3 xəbərdarlıqdan sonra saytın bağlanmasını nəzərdə tutan HADOPI qanununun qüvvəsi isə tamamən dayandırıldı.

**3. Rəqəmsal imperativlə əlaqədar əqli mülkiy-yətin idarə edilməsi sahəsində hansı dəyişikliklər gözlənilir?**

- Heç şübhəsiz ki, yeni informasiya-texnoloji həllər biliklərə əsaslanan əqli mülkiyyətin iqtisadiyyatdakı stumullaşdırıcı rolunu və əqli mülkiyyət hüquqlarına getdikcə artan tələbatı idarə etmək üçün yeni imkanlar yaradacaq. Mütəxəssislərin fikrincə, indiki dövrün əqli mülkiyyət sistemi üzə çıxan bir çox yeni məsələləri həll etməyə qadirdir, ancaq əqli mülkiyyət və idarəetmə siyasətinin digər sahələri üçün problemli olanlar var ki, sözügedən sistem onların həlli vəzifəsində yetərsiz qalır. Frensis Qarri "Əqli mülkiyyətin gələcəyi: imkanlar və problemlər" ("WIPO Magazine", sentyabr, 2017-ci il) məqaləsində bu problemli sahələrə süni intellektin və həyat haqqında elmə IT-nin tətbiqini aid edir.

Siyasi problemlərdən başqa, F.Qarrinin nöqteyi-nəzərinə əsasən, sistem çətinlikləri də üzə çıxır ki, onlardan biri də əqli mülkiyyətin əsaslandığı transparentlik prinsipi ilə əlaqəlidir. Söhbət ondan gedir ki, əqli mülkiyyət hüququnu əldə etmək istəyən hər bir kəs yeni texnologiyalar, xidmətlər, məmulatlar və ya müəlliflik hüququ obyektinə dair müəyyən məlumatların publik açılış şərtinə əməl etməlidir. Və bu prinsipin sayəsində əqli mülkiyyətin həcmi və kimə məxsusluğu başqalarına məlum olur, bu da öz növbəsində hüquqların mübadiləsinə və onların istifadəsinə təkan verir ki, nəticə etibarı ilə sözügedən prinsip texnologiyanın, biznesin və sosial tərəqqinin inkişafını dəs-

təkləyir. Bu funksiyalar, bir qayda olaraq, əqli mülkiyyət idarələri və mülkiyyət hüququna dair ictimai qeydlər aparan dövlət sektoru tərəfindən həyata keçirilir, ancaq günümüzdə, məsələn, "blokçeyn" kimi texnologiyalar yaradılıb ki, qeydlərin çox etibarlı saxlanılmasını və qorunmasını təklif edir və beləliklə dövlət və özəl sektorlar arasındakı ayırıcı xətlər demək olar ki, silinir. "Blokçeyn" texnologiyası bunu açıq reyestr hesabına yox, özəl texnologiyanın yardımı ilə edir. **Bu texnologiyanın əqli mülkiyyət sahəsində istifadəsi ilə bağlı çox maraqlı eksperimentləri mövcuddur** və görünən odur ki, bu texnologiya əqli mülkiyyət obyektlərinin bütün lisenziyalaşdırılma sahələrində istifadə oluna bilər. Beləliklə, "blokçeyn" vasitəsi ilə özəl sektor məlumatların köməkçi qeydiyyatçısına çevrilə bilər (bax: IV hissə). Frensis Qarrinin fikrincə, məhz buna görə də biz böyük potensiala malik olan bu texnologiyanın elmtutumlu məhsullar bazarının şəffaflığına təsiri haqqında, həmçinin əqli mülkiyyət hüquqlarının idarəsinə köməklik etməsi haqqında düşünməliyik.

## II. Qeyri-maddi sərmayə və əqli mülkiyyətin rolunun yenidən dərk edilməsi

Rəqəmsal imperativlə yanaşı, əqli mülkiyyət fəaliyyətinin kontekstini formalaşdıran digər mühüm faktorlar da mövcuddur.

**1.** Əqli mülkiyyət sahəsində müasir əsasnamə haqqında "Qlobal istehsalat-satış zəncirində qeyri-maddi kapital" (WIPR, 2017) adlı bu yaxınlarda dərc olunmuş ÜƏMT-nın araşdırmasında qeyd olunduğu kimi, son on illər ərzində dəyərlər yaranma mərkəzləri maddi aktivlərdən, yəni fiziki kapitaldan qeyri-maddi aktivlərə, yəni əqli kapitala (biliklərə əsaslanan kapitala) doğru hərəkət edir. Bu tendensiya istehsalata yatırımlar sahəsində özünü göstərir.

- Sənaye cəhətdən inkişaf etmiş bir sıra ölkələrin iqtisadiyyatında fiziki kapitalla müqayisədə biliklərə əsaslanan kapitala daha çox investisiyaların qoyulması əqli mülkiyyət fəaliyyətinin kontekstini təsdiq edən keçidin mahiyyətini izah edir. Biliklərə əsaslanan kapitala investisiyaların həcmi fiziki kapitala yönələn investisiyaları artıq ötüb keçib və belə olduqda təbii ki, biliklərə əsaslanan kapitalın rəqabət üstünlüyü artıq rəqabət mübarizəsinin mahiyyətini də dəyişdirmiş olur. Məhz ona görə də biliklərə əsaslanan kapitala investisiyaların qoyulma tempinin artımını görürük. Biliklərə əsaslanan kapitalın rəqabət üstünlüyü yeni məmulatların, xidmətlərin və proseslərin kommersiyalaşması məqsədi ilə istifadə olunan bütün texnologiya, layihə, təşkilat, satış üzrə informasiyaları əhatə edən innovasiyalarla ifadə olunur.

**2.** ÜƏMT-nın araşdırması onu göstərir ki, dünyada satılan sənaye mallarının üçdə bir hissəsi brend, sənaye nümunəsi və texnologiya kimi "qeyri-maddi kapitala"

əsaslanır. ***“Qeyri-maddi kapital müasir qlobal istehsalat-satış hədəfləri çərçivəsində şirkətlərin gələcək aqibətini və rifahını daha çox müəyyən edəcək”*** (ÜƏMT-nın baş direktoru Frensis Qarri)**.**

Təxminən 5,9 trilyon ABŞ dollarına bərabər olan bu məbləğ onu göstərir ki, binalar, qurğular və maddi kapitalın digər növləri ilə müqayisədə sənaye mallarının ümumi dəyərinin iki qat hissəsi məhz qeyri-maddi kapitalın payına düşür. Bu göstərici həm də dünya iqtisadiyyatındakı qeyri-maddi və əlaqəli aktivlərin qorunması üçün istifadə olunan əqli mülkiyyət hüquqlarının rolunun artmasını təsdiq edir.

**Dünya Əqli Mülkiyyət Hesabatının (WIPR) 2017-ci ilə dair bəzi nəticələrinə diqqət ayıraq:**

- 2000-2014-ci illərdə ümumi mal satışının 30.4% qeyri-maddı kapitalın payına düşürdü.
- Qeyri-maddi kapitalın payı 2000-ci ildə 27.8%-dən 2007-ci ildə 31.9% artmışdı və bu göstərici o vaxtdan bəri dəyişməz qalır.
- 2004-cü ildən 2014-cü ilə qədər qeyri-maddı aktivlərin ümumi gəliri 75% artmışdır ki, bu da 2014-cü ildə 5.9 trln. ABŞ dolları təşkil edir.
- Qlobal istehsalat-satış zəncirləri çərçivəsində qeyri-maddi kapitalın istehsal etdiyi malların 50%-i qida mallarının, mexaniki nəqliyyat vasitələrinin və tekstilin payına düşür.

Məruzədə qeyd edilir ki, “xammalın əmtəəyə çevrilməsi, hazır məsulun yığımı və yekun istehlakçılara çatdırılması” üçün bütün dünya iqtisadiyyatını saran istehsalat-satış zəncirləri daha geniş istifadə olunur. Bu zəncirlər daim inkişaf edir, iqtisadi artıma, iqtisadiyyatların inteqrasiyasına və istehsalatın qloballaşmasına gətirib çıxarır. Texnologiya, dizayn və brend formasında olan qeyri-maddi sərmayə, dəyər yaradan qlobal zəncirlərə daxil olaraq,

burada gündən-günə daha da artan rol oynamağa başlayır.

Araşdırmalar onu göstərir ki, istehsal və istehsaldan sonrakı mərhələlər sırf istehsal mərhələsi ilə müqayisədə daha böyük rol oynamağa başlayır. Məhz istehsal və postistehsal mərhələləri məsulun qiymətinin böyük qismini formalaşdırır. Məhz bu mərhələlər qeyri-maddi aktivləri, yəni texnologiyaları, dizaynı, brendi, həmçinin işçilərin səriştəsini və idarəetmədə yenilikləri əks etdirir. Bununla əlaqədar tədqiqatda qeyd olunur ki, məhsulun dəyərinin formalaşdırılmasında əmək, qeyri-maddi və maddi kapitaldan ibarət olan istehsalın 3 faktorundan məhz qeyri-maddi faktorun payı maddi faktorla müqayisədə 2 dəfə artıqdır.

**3.** Müasir əqli mülkiyyətin fəaliyyət kontekstini izah edən vacib keçidlərdən sayılan qərbdən şərqə geosiyasi keçidin baş verməsidir. Frensis Qarrinin nöqteyi-nəzərinə əsasən, bu göstəricilər həm istehsalatda istifadə olunan bilik faktorları, həm də eldə edilən nəticələrlə təsdiqlənir (Əgər 1994-cü ildə ümumi beynəlxalq patent ərizələrinin cəmi 7.6% Yaponiyanın, Koreyanın və Çinin payına düşürdüsə, 2012-ci ildə bu rəqəm 38% təşkil etmişdir ki, bu artım Avropa İttifaqının və ABŞ-ın payından çoxdur).

► Frensis Qarrinin "Əqli mülkiyyətin rolunun yenidən qavranılması" məqaləsində də qeyd edildiyi kimi, daha bir keçid cəmiyyət arasında məlumatın yayımına olan dövlət monopoliyası və internetdəki sosial şəbəkələr hesabına cəmiyyətin siyasətə təsir etmə imkanı ilə əlaqəlidir. **Qloballaşma fonunda bu keçidlərin hər birinin səbəbi rəqəmsal imperativdir.**

► Digər sistem problemi "Əşyalar interneti" nəzərə alınmaqla böyük məlumat massivlərinin generasiyası ilə bağlıdır ki, o məlumatların bəziləri əqli mülkiyyət sisteminin ənənəvi kateqoriyalarına aid deyillər. Ona görə

də o məlumatların qorunması üçün adətən **kommersiya sirrinə** müraciət edilir.

Frensis Qarri qeyd edir ki, "Facebook və Youtube kimi aparıcı onlayn platformaların böyük həcmdə dəyərli məlumat toplama və istehsal etmə qabiliyyəti onları və həmçinin bu qabiliyyətə malik olan digərlərini əlverişli imkanlarla təmin edir. Ancaq burada bu **məlumatlara yiyələnmə** (ənənəvi olaraq) **məsələləri**, həmçinin **təhlükəsizlik və şəxsi həyatın toxunulmazlığına dair bəzi problemlər** üzə çıxır. Məsələn, hər hansı bir şəxsə aid yaxud hər hansı bir şəxsin varlığı haqqında toplanan məlumatlar kimə aiddir?". "Sözügedən məlumatlara nəzərən "sahiblik" anlayışına və onunla bağlı hüquq və vəzifələrə yenilik etmək lazımdırmı?". F.Qarrinin fikrincə, "**əqli mülkiyyət hüquqlarının klassik kateqoriyaları xaricinə çıxan bəzi mülkiyyət hüquqlarına yenidən tərif verilməsi qaçılmazdır**", amma siyasəti işləyib hazırlayanların istədiklərini nəzərə almaq şərti ilə. "Həqiqətən də, əgər məqsəd insan səhhətinin yaxşılaşdırılması naminə məlumatları toplayıb, istifadə etməkdirsə, onda ortaya suallar çıxır: "Mövcud əqli mülkiyyət mexanizmləri müvafiq stimullar toplusunu nə dərəcədə təmin edir? Əlavə stimullara ehtiyac varmı? Məlumat toplayanların davranışı necə tənzimlənməlidir?" Və həmişə nəzərdə saxlamaq lazımdır ki, kommersiya sirlərini tənzimləyən qanunlar həmçinin bu sualların bəzilərini də əhatə edir".

► Beləliklə, özü ilə köklü dəyişikliklər gətirən texnologiyalar əqli mülkiyyət, etika, özəl həyatın toxunulmazlığı, təhlükəsizlik və s. kimi sahələri əhatə edir. Ona görə də beynəlxalq əqli mülkiyyət sistemi mövqeyindən onların nəticəsi gələcəkdə beynəlxalq əqli mülkiyyət arxitekturasının formasını və idarə edilməsini diktə etməsi ilə əlaqəlidir.

- ► Sistem problemlərindən biri də rəqəmsal mühitdə yaradılan əlavə dəyərin yeni biznes-modelləri ilə bağlıdır ki, bu biznes-modellər hüquq sahiblərini mükafatlarla təmin etməklə, qanuni onlayn ticarətini stimullaşdıracaq. Bu modellər "İnternet açıqlığı – müəllif hüquqlarının təmin edilməsi" sistemində balansın bərpa konsepsiyası çərçivəsində hazırlanır. Hal-hazırda bu balans tərəzisi daha çox istifadəçilərin tərəfindədir. Bu yanaşmanın uğur qazanması qanuni onlayn ticarət sxemlərinin internet istifadəçilərinin gözləntilərinə uyğun olaraq hazırlanmasından ibarətdir. Başqa sözlə, qanuni ticarət yaxud lisenziyalaşdırma qeyri-qanuni istifadədə olduğu kimi, sadə və rahatlıqla həyata keçirilməlidir. Kontent istifadəsinin qanuni forması internet istifadəçilərinin gözləntilərinə və tələblərinə uyğun olmalıdır, əks halda istifadəçinin öz tələbatlarını qeyri-qanuni yollarla daha rahat və tez əldə etmə imkanı daim piratçılığın inkişafına təkan verəcək. Artıq dərk edilməlidir ki, texnoloji üstünlüyün və bu üstünlükdən qaynaqlanan yeniliklərin qarşısını almaq mümkün deyil, ona görə də bu prosesə qarşı durmaq yox, texnoloji yeniliklərlə ayaqlaşmaq və əqli əməkdaşlıq etmək lazımdır. **Başqa seçim yoxdur – müəlliflik hüququ sistemi ya internet istifadəçilərinin əldə etdikləri təbii üstünlüklərə uyğunlaşmalıdır, ya da tamamilə məhv olmalıdır.**
- ► Bir çox mütəxəssisin fikrincə, yeni yanaşmanın mahiyyəti müstəsna hüquqların yenidən dərk edilməsindən və qadağa funksiyasının müsbət azad istifadə funksiyası ilə əvəzlənməsindən ibarətdir. Yəni internetdə kontentin istifadəsi sərbəst olur və məhdudiyyət aradan qaldırılır. Artıq 54 ölkədə istifadə olunmaqla öz effektivliyini sübut etmiş açıq lisenziyalı Creative Commons (CC) bu modellərdəndir. Yeni yanaşmanın başqa bir növü də qonorarın ödənilməsi ilə sərbəst isti-

fadə, yəni məcburi (hüquq sahibinə münasibətdə) lisenziya ilə bağlıdır. Bu modellər hüquq sahibləri üçün qonorar və ya kompensasiyanın yığılması mənbələrinin və qaydalarının fərqliliyi ilə xarakterizə olunur. Bu cür mövqe müəlliflik hüququnun məqsədlərinə də uyğun gəlir, yaradıcılıq ifadəsi üçün texnoloji imkanlara təsir etməməli, həmçinin artıq köhnəlmiş, məhv olmaqda olan texnologiyalar əsasında yaranmış biznes modellərin də saxlanılmasına cəhd göstərməməlidir. Mədəni mübadilədən gəlir əldə etmək məqsədilə əsərlərin yaranması və yayılması ilə bağlı yeni texnologiyalarla əməkdaşlıq etmək müəlliflik hüququnun əsas məqsədlərindəndir. ÜƏMT-nın baş direktoru doktor F.Qarri demişkən, "müəlliflik hüququnun məqsədi biznesin korporativ maraqlarını həvəsləndirmək yox, mədəni dinamizmə dəstək verməkdən ibarətdir".

► Ən azı hüququn, infrastrukturun, mükəmməl biznes modellərin və mədəniyyət sahəsində yeniliklərin qeydiyyatının birləşməsi şərti ilə bu yanaşmalar daha faydalı olar.

# III. Dünyada, xüsusən də Azərbaycanda əqli mülkiyyət hüquqlarının təminatı vəziyyətinin və piratçılıq və kontrafaktçılıq səviyyəsinin statistikasının xülasəsi

**1. Bir sıra mənbələr var ki, onların təhlili piratçılığın və kontrafaktcılığın bugünkü miqyasının mənzərəsini tərtib etməyə imkan yaradır (Azərbaycan istisna olmaqla, biz piratçılığa dair öz qiymətləndirməmizi verməmişik).**

- Qeyd etmək lazımdır ki, piratçılığın və saxtakarlığın miqyasına dair məlumatlar, bir qayda olaraq, müvafiq sahələr tərəfindən maliyyələşən tədqiqatlara əsaslanır, bu isə çox vaxt verilənlərin yoxlanılmasında qeyri-şəffaflıq və dəlillərə sərbəst münasibət nümayiş etdirən sahələrin maraqlarını güdən lobbiçilik "səyləri" ilə ifadə olunur.

Məsələn, RIAA (Amerika Səsyazma industriyası Assosiyasiyası), MPAA (Amerika kinosu Assosiyasiyası) və BSA (İşgüzar proqram təminatı İttifaqı) kimi birliklərin piratçılıq haqqında məlumatları, xüsusən də rəqəmlərə qeyri-ciddi, şüari yanaşması səbəbindən (səhv və ya təsdiq edilməsi mümkünsüz olduğuna görə) pozuntularla əlaqədar iş yeri itkilərinə dair illik qiymətləndirmə tənqid mövzusuna çevrilmişdir [bax: J.Karaqanis «Piratçılığın yenidən dərk edilməsi», 2010, Social Science Research Counsel, Media Piracy in Emerging Economies, а также Sanchez, 2008 и GAO 2010].

J.Karaqanis qeyd edir ki, «Dəlillərin istifadəsi lobbiçilik səyləri ilə idarə olunursa, diqqəti çəkən rəqəmlərə üstünlük vermək qaçılmazdır. Piratçılıq sahəsində bu qeyri-ciddi, şüari yanaşma sahənin daha ehtiyatlı nəticələrinin korpusunu da üstələyir».

Misal olaraq, IFPI (Səsyazma sahələrinin beynəlxalq federasiyası) və BSA (Əyləncə üzrə proqram təminatı İttifaqı) öz məlumatlarında sahənin itkilərini pulla dəyərləndirmir, yalnız pərakəndə qiymətlərlə pirat satışlarının dəyərini xarakterizə edirlər. 2010-cu ildən sonra BSA tənqid olunan “sahənin itkiləri” praktikasından imtina etdi, MPAA isə pirat diskləri və itirilmiş satışlar arasındakı bilavasitə ekvivalentlik barədə təxminləri daha qəliz qiymətləndirmə sayılan “sıxışdırma effekti” ilə əvəz etdi, RIAA-a gəlincə isə, bu qurum diqqətini musiqinin istifadəsində davranış dəyişikliyinin dərk edilməsinə cəmləşdirdi.

Tamamilə aydındır ki, BSA-nın piratçılıq səviyyəsinə dair nəticələrini ölkədə kompüter sayı, proqram təminatlarının orta qiyməti və ya proqram təminatının ortalama yüklənməsi kimi modellərin vacib giriş parametrlərini dərk etmədən qiymətləndirmək mümkün deyil. Və ya, MPAA hansı məsələləri öz təhlillərinə daxil edir? Pirat satışlarını qanuni satışlarla əvəz etmək üçün piratçılıqda əsas dəyişənlər necə hesablanır? IFPİ filiallarının istehlakçı sorğuları yekun nəticələrə necə aqreqasiya olunur? Bu kimi suallar cavab tapmayınca, onların təqdim etdiyi məlumatların ciddiliyi haqqında nə isə söyləmək çətindir.

**2.**

- ✓ Vahid böyük bir müəssisənin tədqiqat və siyası qolu kimi birgə fəaliyyət göstərən IIPA-ın (Əqli Mülkiyyət üzrə Beynəlxalq Alyans) USTR-nin (ABŞ-ın Ticarət Nümayəndəliyi Ofisi) 301 Xüsusi Hesabatının əsasını təşkil edən və ölkələr üzrə zəngin kəmiyyət və hüquqi təhlilə malik olan məlumatını ayrıca qeyd etmək lazımdır.
- ✓ Digər tədqiqatların məlumatlarına və üsullarına əsaslanan, öz verilənlərini və metodologiya təsvirini açıqlayan az sayda tədqiqatları xüsusi qeyd etmək istərdim. Buraya Beynəlxalq Ticarət Palatası tərəfindən maliyyələşən OECD – İqtisadi əməkdaşlıq və inkişaf Təşkilatı-

nın və onun sifarişi ilə tədqiqat aparan BASCAP (Piratçılığa və kontrafakrçılığa qarşı Biznes-Koalisiya) kimi qurumların qiymətləndirmələri daxildir.

- ✓ Qeyd edək ki, rəqəmsal hüquqların xeyli artması ilə əlaqədar, hal-hazırda onlayn-monitorinqə tərəf meyl müşahidə olunur və bununla yanaşı, tədqiqatçılar və ilk öncə müstəqil təşkilatlar piratçılıq haqqında dəqiq rəqəmlərlə yox, daha çox ümumi mənzərəyə dair söhbət aparır və görünən budur ki, onların bu mövqeyi dövlət və beynəlxalq təşkilatları tərəfindən qəbul olunur.
- ✓ Beynəlxalq Ticarət Palatası (ICC) OECD 2007-ci ilin yekun rəyində "Piratçılığın və kontrafaktçılığın iqtisadiyyata təsiri" tədqiqatını dəstəklədi və iqtisadi zərər anlayışını əsas olaraq təsdiqləməklə yanaşı, sahənin itki qiymətləndirilməsini bəyan etdi. Amma elə bu rəyin özündə də qeyd olunub ki, "tam məlumat əldə etmək üçün istifadə oluna biləcək metodologiyanın yoxluğundan, piratçılığın və kontrafaktçılığın tam səviyyəsi məlum deyil".
- ✓ 2009-cu ildə OECD "Rəqəmsal kontentin piratçılığı" adlı hesabatını davam edərkən, piratçılıq sahəsində müşahidə olunan mənzərə haqqında keyfiyyətli bəyanatlara və nəticələrin dar çərçivəli tədqiqatlarına əsaslanırdı. 2010-cu ilin mart ayında ABŞ Hesablama Palatası (GAO) piratçılıqdan olan itkilərə dair məlumat yaymış və dəqiq hesablamaları təqdir etməyən OECD xəttini əsas götürmüşdür.
- ✓ ÜƏMT 2009-cu ilin noyabrında hüququn icbari tətbiqi üzrə Məsləhətçi komitənin açılışında 3 gün ərzində çoxsaylı tədqiqatlara tələbat məsələsi müzakirə edilmişdi. Piratçılıq səviyyəsinin qiymətləndirilməsində biz də bu cür ehtiyatla yanaşmanı tərcih edirik, xüsusən də nəzərə alsaq ki, TRİPS qəbul olunduqdan sonra

ümumi qəbul edilmiş “piratçılıq” termininin dayanıqlı hüquqi təyinatı, o cümlədən milli qanunvericiliklərdə də mövcud deyil, terminin qeyri-müəyyənliyi kommersiya məqsədilə əsərin qeyri-qanuni surətinin çıxarılmasından tutmuş rəqəmsal məhsulun satışına və ədalətli istifadənin hüdudlarına dair mübahisələrə qədər kompensasiya ödəmədən istifadənin növləri arasındakı vacib fərqləri bilərəkdən ört-basdır edir.

✓ Bununla yanaşı, vurğulamaq lazımdır ki, piratçılığın qiymətləndirilməsi məsələsində əsasən ümumi qaydalara riayət edilir. Həmin qaydalar ondan ibarətdir ki, piratçılığın səviyyəsi müxtəlif ölkələrdə adam başına düşən ÜMD kimi daha geniş sosial-iqtisadi inkişaf göstəricilərinə tərs proporsional olur.

**3. Bu təqdimatda biz piratçılığın və kontrafaktçılığın miqyası barədə BASCAP və INTA üçün hazırlanan məlumatları istifadə edirik.**

◆ Xatırladaq ki, BASCAP layihəsi (Biznes və kontrafakt və piratçılıq) ICC (Beynəlxalq Ticarət Palatası) tərəfindən yaradılıb və piratçılığa və kontrafaktçılığa qarşı mübarizənin səviyyəsini qiymətləndirən qlobal biznes-cəmiyyətlərini birləşdirir. ICC bu sahədə aparılan tədqiqatların nəticələrini təqdim edərək və OCED təşkilatının piratçılığa və kontrafaktçılığa dair tövsiyələrinin inkişafına dəstək verərək, OSED təşkilatı ilə əməkdaşlıq edir, həmçinin ICC INTA-a (Ticarət Nişanları üzrə Beynəlxalq Assosiasiya) birləşərək, onun fəaliyyətinə dəstək verir.

◆ 2017-ci ildə Frontier Economics BASCAP və INTA üçün tədqiqat hazırlamışdı ki, burada hələ 2011-ci ildə Frontier-in BASCAP üçün olan hesabatında piratçılıq və kontrafaktçılıq məhsullarının illik həcminin 650 mlrd. ABŞ $ olduğu halda artaraq, 2015-ci ilə təxminən 1,8 trln. ABŞ $. təşkil edəcəyi göstərilmişdir. Dövlət və

özəl sektorların səylərinə baxmayaraq, problem böyüməkdə davam edirdi və OECD / EC özünün növbəti hesabatında 2008-2013-cü illər ərzində kontrafaktçılığın 80% artdığını göstərmişdi.

**Beləliklə, təsdiq və qəbul olunur ki, «piratçılıq və kontrafaktçılıq məhsulları və ya əqli mülkiyyətin oğurlanması dünya iqtisadiyyatına hədsiz ziyan vuraraq, qanuni iqtisadi fəaliyyətdən milyardların axınına səbəb olur və "gizli iqtisadiyyata" təkan verir, hökuməti vacib ictimai xidmətlərdən əldə edə biləcək gəlirlərdən məhrum edir, daha da yüksələn vergilərin yükünü artırır, yüz minlərlə qanuni iş yerlərini sıxışdırır və istehlakçıları təhlükəli və qeyri-effektiv məhsullarla təhdid edir".**

- OECD təşkilatının məlumatına görə, 2013-cü ildə saxta pirat mallarının satışı beynəlxalq ticarətin 2,5%-i və ya 61 mlrd. ABŞ $. təşkil edirdi, yəni OECD-in 2008-ci ildəki məlumatı ilə müqayisədə 80%-dən çox.
- Frontier-in məlumatına əsasən, kontrafakt və pirat məhsullarının beynəlxalq və daxili ticarətinin dəyəri 2013-cü ildə 710-917 mlrd. ABŞ $, buna əlavə olaraq, rəqəmsal piratçılığın kinoda, musiqi və proqram təminatı sahəsindəki qlobal dəyəri 2013-cü ildə 213 mlrd. ABŞ $ həcmində idi.
- **BASCAP və INTA üçün hazırlanan Frontier (2017) tədqiqatlarına əsasən, saxtakarlıq (kontrafaksiya) və piratçılığın ümumi qiymətləndirmə cədvəli aşağıdakı kimidir:**

| | | 2013 | 2022 (proqnoz) |
|---|---|---|---|
| **1.** | Kontrafakt və piratçılıq mallarının ümumi beynəlxalq ticarəti | 461 mlrd. $ | **991 mlrd. $** |
| **2.** | Kontrafakt və piratçılıq mallarının ümumi daxili istehsalı və istehlakı | 249 – 456 mlrd. $ | **524 – 959 mlrd. $** |
| | | | |
| | | **2015** | **2022 (proqnoz)** |
| **3.** | Proqram təminatı, musiqi və kino sahəsində rəqəmsal piratçılıq, o cümlədən:<br>- kinoda;<br>- musiqidə;<br>- proqram təminatında | 213 mlrd. $<br>160 mlrd. $<br>29 mlrd. $<br>24 mlrd. $ | **384 – 856 mlrd. $**<br>**289-644 mlrd. $**<br>**53-117 mlrd. $**<br>**42-95 mlrd. $** |
| | | | |
| | **Kontrafakt və pirat məhsullarının ümumi dəyəri** | **923 mlrd. $ – 1.13 trln. $** | **1.90 – 2.81 trln.$** |

– **Kontrafaktçılıq və piratçılığa görə iqtisadi və sosial itkilərin cədvəli (Frontier, 2017-ci il):**

| | 2013 | 2022 (proqnoz) |
|---|---|---|
| Qanuni iqtisadi fəaliyyəti kənaretmə | 470 - 597 mlrd. $ | **980 – 1244 mlrd. $** |
| Birbaşa Xarici İnvestisiyaların azalması | 111 mlrd. $ | **231 mlrd. $** |
| Maliyyə itkilərin qiymətləndirməsi | 96 – 130 mlrd. $ | **199 – 270 mlrd. $** |
| Cinayət üçün ehtimal olunan məsrəflər | 60 mlrd. $ | **125 mlrd. $** |
| | | |
| Ümumi sosial və iqtisadi xərclər | 737 – 898 mlrd. $ | **1.54-1.87 trln. $** |
| | | |
| Məşğulluq sahəsindəki itkilər üzrə qiymətləndirmə məlumatı | 2-2.6 mlrd. $ | **4.2 - 5.4 mln. $** |
| | | |
| 2017 ildə OESD-a ilkin iqtisadi artım üzrə məlumat | **30 milr.-dan 54 mlrd. $-a qədər** | |

Tədqiqatlara əsasən 2013-cü ildə 2 milyondan - 2.6 mln. qədər qeydə alınan iş yerləri itkisi proqnozlara görə, 2022-ci ildə artaraq, 4,2-5,4 mln. təşkil edəcək.

➢ Kontrafaktçılığın və piratçılığın dəyişkən intensivliyinin iqtisadi inkişafa təsirini qiymətləndirən ekonometrik modellərə əsasən, OECD təşkilatının 35 ölkəsi üçün 2017-ci ildə azalma 30-54 mlrd. $. təşkil edəcək.

Yuxarıda yazdıqlarımızı nəzərə alaraq, əlavə qeydlər də etmək istərdik:

- Tədqiqatlara əsasən, kontrafaktçılıq və piratçılığın təsir etdiyi mal və məhsulların diapazonuna dəbdəbəli istehlak malları (dəri və s.), adi istehlak malları (oyuncaqlar, müalicəvi preparatlar), biznes üçün məhsullar, həmçinin kimyəvi qatqılar və ehtiyat hissələri daxildir.
- Kontrafaktçılıq və piratçılığın yayılma coğrafiyası müxtəlifdir, Aİ-da geniş yayılıb, 2013-cü ildə idxalın 5%-i (116 mlrd. ABŞ dolları) təşkil edib.
- Beynəlxalq ticarət sahəsində də kontrafaktçılıq və piratçılığın artması müşahidə olunur: OECD, qiymətləndirməsinə görə, 2008-ci ildə beynəlxalq ticarət dövriyyəsində satılan kontrafakt və pirat məhsullarının həcmi qlobal idxalın 1,9%-i təşkil etmişdir (200 mlrd. ABŞ dolları). 18%-ə bərabər olan illik qiymətləndirmə artımı, böyük ehtimal ki, qismən əqli mülkiyyət sahəsində cinayətlərin davam edən prioriteti, qismən də 2008-ci ildən sonra əqli mülkiyyət hüquqlarının təminatı üçün ayrılan əlavə resursların olmamağı ilə əlaqəlidir. Digər faktorlar isə 2008-ci ilin böhranından sonraki iqtisadi canlanma və elektron ticarətin artımı ilə bağlıdır.
- 2008-ci ildə daxili kontrafaktçılıq və piratçılığın dəyəri 140-215 mlrd. ABŞ $., 2011-ci ildə – 193-354 mlrd. ABŞ $. təşkil edirdi. Bu o deməkdir ki, 2013-cü ildə göstərici 2 dəfə çoxalıb (amma yenə də qiymət verərkən ehtiyatlı olmaq lazımdır).

**4. Rəqəmsal piratçılıq.**

- P2P – kino sahəsində ən populyar piratçılıq üsuludur, BitTorrent isə bu gün P2P ən böyük şəbəkəsidir. 2015-ci ilin məlumatına görə, kino sahəsində rəqəmsal piratçılığın bütün formalarının istifadəsi ilə həyata keçirilən 47,8 mlrd. qeyri-qanuni yükləmə qeydə alınıb.

- Qlobal musiqi sahəsi də çox dəyişməyib – 2011-ci ildə 14,8 mlrd. $., 2015-ci ildə isə 15,0 mlrd. $. Bununla belə, fərqli yöndə əhəmiyyətli dəyişmə də var: ilk dəfə rəqəmsal gəlirlər adi gəlirləri üstələmiş oldu, bundan başqa axın platformaları da genişləndi (2013 və 2015-ci illər arası üç dəfə artaraq, 317,2 mlrd. $ təşkil etdi). Müqayisə üçün: 1 mlrd. sinqllar, 0.1 mlrd. musiqili albom rəqəmli yüklənmiş, amma fiziki pərakəndə satışlar 2015-ci ildə cəmi 0,1 mlrd. artmışdı. İnternetdəki müsiqidən axın ötürmə vasitəsi ilə əldə edilən ümumi gəlir 9%-dən (2011-ci il) 34%-ə qədər (2015-ci il) artmışdı.
- Burada maraqlı bir fakt da var. Söhbət ondan gedir ki, axın yayımı bir tərəfdən musiqi satışının qabağını tutur (əlçatımlılıq), digər tərəfdən isə musiqi piratçılığını məhv edir, çünki musiqiyə ucuz, hətta pulsuz və rahat əlçatımlıq tələbatını təmin edir.
- EUIPO təşkilatının məlumatına əsasən (2016-cı ilin mayı), musiqi piratçılığı Avropada qeydə alınmış musiqi sənayesinin gəlirlərinə 5,2% (170 mln. avro) zərər vurub, Aİ iqtisadiyyatının pirat satışlarından çəkdiyi maliyyə zərəri 336 mln. avro, dövlət gəliri şəklində isə 2155 iş yeri itkisi olaraq ~ 63 mln. avro təşkil etmişdi (qeyd edək ki, IFPI hesab edirdi ki, itkilər tam olaraq qiymətləndirilməyib və ona görə də EUIPO metodikasını tənqid edirdi).

IFPI qiymətləndiməsi əsasında tərtib olunmuş aşağıdakı cədvəl treklərə nəzərən piratçılığın “töhfəsini” əks etdirir.

| | **treklər, %** |
|---|---|
| **Stream ripping** | 9% |
| **BitTorrent** | 72%(bütün yükləmələrin 22%-i – sinqllar, 78%-i – albomlar) |
| **Lockers** | 16% |
| **MP3 sites** | 3% |

Piratçılıqda yeni formaların yaranmasına baxmayaraq, BitTorrent musiqi yükləmə sahəsində liderdir və 2015-ci ildə onun yükləmə trek sayı 19,7 mlrd. təşkil etmişdi. Musiqi piratçılığının bütün formaları üzrə isə 2015-ci ildə 27,4 mlrd. qeyri-qanuni trek yükləməsi qeydə alınmışdı.

- ❖ Bütün dünya üzrə istehlakçılar proqram təminatlarına 2015-ci ildə 444 mlrd. ABŞ dolları xərcləmişdi. Bununla belə, fiziki softverin satışı azalmış, rəqəmsal olanlar isə artmışdı. BSA-nın məlumatına görə, dünyada lisenziyasız softverin dəyəri 40 mlrd. ABŞ $-dan (2006-cı il) 52 mlrd. $-a qədər artmışdı (maksimum hədd 2011-2013-cü illərdə qeyd edilmişdi: 63 mlrd. $). 2015-ci ildə dünya üzrə lisenziyasiz təminat lisenziyalı softverin 6%-i təşkil etmişdi ki, burada artım 39% və ya 52 mlrd. $ idi. BSA hesablamaları onu göstərir ki, proqram təminatı üçün piratçılığın sürətinin 4 il ərzində 10% azalması 142 mlrd. ABŞ dolları dəyərində yeni iqtisadi fəaliyyət yaradır. Bu fəaliyyətin 80%-i proqram təminatı sənayesinin birbaşa gəliri olacaq. 2013-cü ildə IDC hesablamışdı ki, il ərzində istehlakçılar saxta proqram təminatlarının zərərli proqram təminatlarına 1.5 mlrd. saat vaxt xərcləyəcək, birbaşa xərclər isə 114 mlrd. $ təşkil edəcək.
- ❖ **IIPA təşkilatının İnternetdə və mobil şəbəkələrdə piratçılığa dair məlumatına görə**, İnternetdə müəlliflik hüquqları ilə qorunan məhsul və xidmətlərin ticarəti qlobal rəqəmsal ticarətin əsas komponentini təşkil edir. Bir çox ölkələrdə geniş yayılmış piratçılıq yeni xidmətlərə görə qanunu pozanlara qazanc gətirir, bu da qlobal bazarlarda qanuni xidmətlərin inkişafına maneçilik törədir, qanuni ticarətin imkanlarını məhdudlaşdırır. IPSOS IFPI 2016-cı ildə keçirdiyi tədqiqat onu göstərmişdi ki, internet istifadəçilərin hər beş nəfərindən biri

(19%) musiqi yükləməsində qanun pozuntusuna yol vermişdi.

- **ÜƏMT hüquqların müdafiəsi üzrə Məsləhətçi komitəsinin məlumatına əsasən** (23-25 noyabr 2015-ci il)**,** 2013-cü ildə onlayn kanallar vasitəsi ilə piratlaşdırılmaya məruz qalan əsərlərin sayı 2,1655 mlrd., oflayn kanallarla isə 300,86 mln. təşkil etmişdi. Faktiki olaraq, onlayn-piratçılığın həcmi oflayn-piratçılıqdan 7 dəfə yüksək olmuşdu. Onlayn pirat bazarının 55,4 mln. $, oflayn bazarının dövriyyəsi isə 317,4 mln. $ olmuşdu. Bu fərq qorunan əsərin onlayn rejimində canlandırılmasının ucuza başa gəlməsindən, kompakt diskdə, DVD-də yaxud digər daşıyıcılarda oflayn surət çıxarmanın isə satış xərci, marja və s. kimi müxtəlif xərclər tələb etməsindən qaynaqlanır.




**5. Nəticələr.**

- Saxtakarlıq və piratçılıq - əqli mülkiyyətin qanunsuz əldə edilməsi və istifadəsi ilə bağlı oğurluq növüdür. Beləliklə, kontrfaktçılığın və piratçılığın iqtisadi və sosial

xərcləri digər oğurluq növlərinin (məsələn, şəxsi əşyaların oğurluğu) xərcləri ilə eynidir. Saxtakarlıq və piratçılıq dövlət və özəl sektor resurslarını daha məhsuldar təyinatlardan, əqli mülkiyyətin qeyri-qanuni əldə edilmə problemi isə əqli mülkiyyətin qorunması üçün ayrılan vəsaitlərdən yayındırır.

Lakin iqtisadi xərclər oğurluğun ənənəvi xərclərindən qat-qat çoxdur.

Birincisi, bu mənfi amillər innovasiyaların faydasını azaldır, yenilikçiliyə və istifadəçiyə zərər vurur. Kontrafaktçılıq və piratçılıq səbəbindən eroziyaya uğrayan əqli mülkiyyətlə əlaqəli iqtisadi xərclər xüsusən də biliklərə əsaslanan iqtisadiyyat üçün ciddi problemlər yaradır.

İkincisi, mülkiyyət oğurluğunun klassik təhlili nəticə etibarı ilə oğurluq anlayışını heç bir xərc tələb etməyən yerdəyişmə kimi qiymətləndirir, praktikada isə saxtarlıq və piratçılıq baş verdiyi halda bu cür yanaşma etibarsız sayılır və saxtakarlıq və digər cinayət növləri arasında sıx əlaqənin olması ilə müəyyən edilir. Başqa sözlə desək, kontrafaktçılıq və piratçılıq ötürmə deyil, "dəyərdir", ona görə ki, kontrfaktçılıq və piratçılıq digər xərcləri də stimullaşdırır, yəni sosial rifaha mənfi təsir edir.

Beləliklə kontrfaktçılıq və piratçılıq xüsusiyyətcə "mənfi", iqtisadi və sosial fenomenlərdir və onların ölçüsü vacibdir.

Əqli mülkiyyət hüquqlarının məhv edilməsi innovasiyalara stimul yaradan amilləri zəiflədir, uzun müddətli planda isə iqtisadi inkişafa ciddi təsir göstərir (çünki nəticə etibarı ilə innovasiyalar, texnoloji tərəqqi və məhsuldarlıq qarşılıqlı əlaqəlidirlər).

**6. Azərbaycanda hüquqların təmin olunması və əqli mülkiyyət mədəniyyətinin formalaşması.**

Müəllif hüquqlarının təmin olunması və əqli mülkiyyət mədəniyyətinin formalaşması məsələsi daim Agentliyin

diqqət mərkəzindədir, müvafiq dövlət orqanları ilə birgə plagiatçılığa qarşı mübarizənin gücləndirilməsinə, ölkədə piratçılığın səviyyəsinin azalmasına yönələn tədbirlər keçirilir, bu sahədə ölkədəki vəziyyət təhlil və monitorinq edilir.

“Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Qanuna əsasən, müəlliflik hüquqları ilə qorunan obyektlərin nüsxələrinə nəzarət markalarının yapışdırılması üzrə işlər aparılmaqdadır. Hələ 2016-cı ildə 18400 nəzarət markası verilmiş, 2017-ci ilin əvvəlinə isə 20-dən çox təşkilatın müraciətləri baxılma mərhələsində idi. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə əməkdaşlıqda “Elmi, tədris və ədəbi əsərlərin mətnlərində plagiat və onun qarşısının alınması yolları” mövzusunda dəyirmi masa keçirilmişdir, Agentliyin təşəbbüsü ilə dünya təcrübəsi nəzərə alınmaqla, tədris müəssisələrində antiplagiat informasiya axtarış sistemləri tətbiq olunur.

Aşağıda piratçılığın azalma səviyyələri təqdim olunur. Piratçılıq səviyyəsi kitab satışı sahəsində 61%-dən 29%-ə, audio-video satış bazarında 90%-dən 65%-ə, proqram təminatında isə 96%-dən 75%-ə düşmüşdür.



- ❖ Hüquqların təmin olunmasında Agentliyin “Qaynar xəttinin” (№ 960) və reallaşdırdığı Antipirat proqramlarının, həmçinin ictimai əsaslarla fəaliyyət göstərən və əqli mülkiyyət hüquqları sahəsində müəllif və digər hüquq sahiblərinə xidmət edən “Hüquq məsləhətxanası”-nın da rolu əhəmiyyətlidir.
- ❖ Belə ki, 2016-cı ildə müəlliflərin və hüquq sahiblərinin müəllif-hüquq məsələləri üzrə 1450-dən çox müraciət və sorğusuna baxılmış və qaldırdıqları məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində köməklik göstərilmiş, müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 30 məhkəmə iclasında iştirak edilmiş, məhkəmə orqanlarının və hüquq sahiblərinin sorğuları əsasında müəllif-hüquq məsələləri ilə bağlı 15 ekspert rəyi hazırlanmışdır.
- ❖ Hüquqi maarifləndirmə sahəsində də keçirilən tədbirlər davam etdirilməkdədir. Agentliyin təşkilatçılığı və iştirakı ilə 2016-cı ildə 8, o cümlədən beynəlxalq tədbir keçirilmiş, KİV-lərdə 106-dan çox informasiya, maarifləndirici və təbliğat xarakterli material dərc olunmuş, TV və radio kanallarında əqli mülkiyyət və müəlliflik hüquqlarına həsr olunmuş çoxsaylı veriliş və süjetlər göstərilmiş və səsləndirilmişdir. Ölkəmizi, digər dünya dövlətlərini və beynəlxalq təşkilatları təmsil edən peşəkar mütəxəssislər, alimlər, beynəlxalq ekspertlər, tarixçilər və qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən 75-ə yaxın təqdimat keçirilmişdir. Agentliyin nümayəndələri həmçinin müxtəlif beynəlxalq tədbirlərdə 10-dan artıq təqdimatla çıxış etmişdir.
- ❖ Maarifləndirmə xarakterli ədəbiyyatın nəşri və əhali arasında yayımlanması istiqamətində də fəal addımlar atılmışdır. 2016-cı ildə 6 kitab, 20-dən çox kitabça və buklet, o cümlədən “Universitet və elmi-tədqiqat idarələri üçün əqli mülkiyyət sahəsində siyasət haqqında

nümunəvi əsasnamə”, “Azərbaycanın universitetlərində və elmi-tədqiqat müəssisələrində əqli mülkiyyət sahəsindəki siyasət haqqında”, “Azərbaycan Respublikasının universitetlərində əqli mülkiyyətin və elmi-tədqiqat fəaliyyətinin dəstəklənməsində Müəllif Hüquqları Agentliyinin rolu (İnnovasiyalı inkişaf və universitetlərdə (elmi müəssisələrdə) texnologiyaların kommersiyalaşması yolları)”; “Müəlliflik hüququ və əlaqəli hüquqlar”, “Rəqəmsal iqtisadiyyatda əqli mülkiyyət” və s. dərs vəsaitləri, keçirilən tədbirlər zamanı müəllif hüquqları sahəsinə aid 7 beynəlxalq konvensiya, müqavilə və sazişlər, normativ aktlar və hüquqi sənədlər nəşr olunmuş və paylanmışdır.

❖ Ümumilikdə 2016-cı ildə Agentliyin xətti ilə 13 kitab və kitabça, kitab versiyasında işıq üzü görən 50 təqdimat, “Əqli mülkiyyət hüquqlarının təminatı”, “Müəllif hüquqları”, “Müəllif hüquqlarının tarixi” və s. multimedia tədris dərslikləri yenidən nəşr olunmuş və müxtəlif tədbir və təqdimatlarda nümayiş etdirilmişdir.



**7. Piratçılıq və ilk öncə rəqəmsal piratçılıq mülkiyyət hüquqlarının kollektiv idarə edilməsinə də mənfi təsir göstərir.**

► CİSAC təşkilatının 2017-ci ildə dərc etdiyi hesabata əsasən (2016-cı il də daxil olmaqla), ümumi yığım 9,2 mlrd. avro təşkil edərək, 2015-ci illə müqayisədə 6% artaraq, dünya üzrə 4 milyondan çox yaradıcının royaltisini əhatə etmişdi (2016-cı il). Bundan əlavə, rəqəmsal gəlir illik 51% artaraq, böyüməyə davam edir. Kollektiv idarəetmə repertuarı kəsiyində ən yüksək yığım musiqinin payına düşərək (8.006 mln. avro), 6.8% artaraq, ümumi yığım məbləğinin 87,4% təşkil etmişdi. Audiovizual əsərlər üzrə yığımlar 578 mln. avro ilə 0.8% artaraq, ümumi yığımın 6,3%-i təşkil etmişdi. Ədəbi əsərlər üzrə yığımlar 208 mln. avro ilə 5.3% artaraq, ümumi yığımın 2,3%-i təşkil etmişdi. Dram və vizual incəsənət əsərləri üzrə yığım azalaraq, 190 mln. avro və 174 mln. avro, yəni 0.7% və 4.2% düşməklə, ümumi yığımın 2,1% və 1,9% təşkil etmişdi.

Bu məlumatlar dünya üzrə orta göstəricinin adam başına 1.48 avro olduğunu və 2015-ci illə müqayisədə (1,43 avro) artdığını nümayiş etdirir. Burada qeyd etməliyik ki, Avropa və Kanada / ABŞ üzrə məbləğ ümumdünya göstəricisindən yüksəkdir (adam başına 5,79 avro).

## Qonorarın yığımına (royalti) dair ümumi məlumatlar:

**2016-cı ildə CİSAC Ümumdünya kolleksiyası (yığım və ya royalti)**




CİSAC üzvlərinin dünya kolleksiyası artımı 2016-cı ildə 6% və ya 9.2. mlrd. avro təşkil etmişdi.

**2012-2016-cı illər üzrə dünya kolleksiyasının dinamikası**




2012-2016-cı illər ərzində CİSAC üzvlərinin kolleksiyası 18,5% artmışdı. Bu artımın böyük bir hissəsini digər istiqamətlərdəki (qruplardakı) azalmanı kompensasiya edən rəqəmsal kolleksiyaların kəskin böyüməsi ilə izah etmək mümkündür.

## İstifadə olunan repertuar kəsiyində:

**TV və radio öndədir, rəqəmsal əsərlər 10% təşkil edir.**




2016-cı ildə dünya kolleksiyasının mənbələr üzrə gəliri.

**Rəqəmsal texnologiyalar qlobal artıma təkan verir.**




Rəqəmsal kolleksiyaların yığımı, kiçik seqment olsa belə, dünyanın bütün bölgələrində üstünlük təşkil edir. 2016-cı ildə rəqəmsal kolleksiya 51.4% artmışdı.

Bütün dünya üzrə kolleksiyaların ən böyük mənbəsi TV və radio yayımlarıdır – 48%. Son illərdə göstərdiyi sürətli artıma baxmayaraq Digital dünya kolleksiyasının ümumi məbləğinin cəmi 10.4% təşkil edir.

Mənbə: *CİSAC – 2017 hesabatı*

- ✓ **CISAC təşkilatının gəldiyi nəticə** ondan ibarətdir ki, rəqəmsal istifadə qonorarların ümumi yığımına təsir göstərir, ancaq burada problem ondadır ki, rəqəmsal canlanma nəticəsində royaltinin qlobal yığımının 10%-i təşkil edən müəllif gəlirləri lazım olduğu qədər artmır, çünki gəlirlərin əsas payı yaradıcılara yox, rəqəmsal xidmət göstərənlərə gedir (digital-ın ümumi artımı 51,4% təşkil edir). Və burada fundamental ədalətsizlik və bazarın qəbul olunmaz disbalansını düzəldə biləcək qanunverici islahatlara zərurət yaranır.
- ✓ **Hesabatda təsdiq olunur** ki, ümumiyyətlə "rəqəmsal bazarda gəlirlərin prinsipcə ədalətsiz və səmərəsiz paylaşımı mövcuddur. Yəni kontenti əlçatımlı edənlər yaradıcıdan, investordan və naşirdən daha çox gəlir qazanır və bu təşkilatlar yaradıcılara nə isə verməkdən imtina edir. Və bunun nəticəsi yaradıcı sektor üçün dağıdıcı olur, çünki yaradıcı kontentin istifadəsində böyük artım müşahidə olunur, amma dəyərin qaytarılması çox cüzidir".
- ✓ **Hesabata əsasən, tələb üzrə musiqinin ən böyük mənbələri olan istifadəçi kontentlərin servisi dəyərin ötürülməsinin əsasında durur. Bu xidmətləri yaradanlara qaytarılan gəlirlər qeyri-proporsional olaraq azdır.**

**8. İnternet şəbəkəsində əqli mülkiyyətdən qeyri-qanuni istifadə qaynağı əsasən İnternet-saytlarıdır.**

Qeyri-leqal (pirat) materiallar məhz saytlar vasitəsi ilə yayımlanır və həmin materialların saytın sahibi olmadıqda istifadəçisi tərəfindən yayımlanması artıq fərq etmir. Hüquq sahibinin icazəsi olmadan materialın qeyri-leqal yayımı, kütləyə çatdırılması məhz saytlar vasitəsi ilə baş verir. Mütəxəssislər pirat saytlarını 5 əsas tipə bölür:

- **Link-saytlar (Link sites)** – bu saytlar qadağan olunmuş məlumatı öz serverində saxlamır, ancaq UGC və

ya DDL-saytına istinad verməklə, istifadəçiyə qeyri-qanuni olaraq filmə baxmağa və ya yükləməyə imkan yaradır.

- **Onlayn saytlar (Online sites)** – öz səhifələrində müəllif hüquq sahiblərinin hüquqlarını pozan və onlayn rejimində baxılan videokontenti yerləşdirən internet resurslarıdır. Çox vaxt bu saytlar öz serverlərində müəllif hüquqlarını pozan faylları saxlamırlar, yalnız mənbə-saytlarının proqram kodlarını yerləşdirirlər. Populyar video-hostinqlər bir çox hallarda proqram kodunu təqdim edirlər, həmin kodu yerləşdirən ziyarətçilər isə real zaman rejimində maneəsiz və ödənişsiz videoçarxlara baxma imkanını əldə edirlər.
- **İstifadə kontentləri olan saytlar (User Generated Content sites, UGC).** UGC saytları istifadəçilər tərəfindən yüklənən videonu saxlayır və digər istifadəçilərə həmin videoya onlayn rejimdə baxmağa imkan yaradır, yəni fayl istifadəçi tərəfindən yaradılır, amma UGC saytının serverində saxlanılır.
- **P2P (peer to peer) texnologiyasını istifadə edən Torrent-saytlar.** P2P saytları torrent-fayllara istinadları təqdim edir. Bu cür saytlardan torrent-faylı yüklədikdən sonra xüsusi proqram vasitəsilə digər istifadəçilərin kompüterində mövcud olan faylın özünü də yükləmək mümkündür. Hər hansı bir filmi öz kompüterində nə qədər çox adam saxlayarsa, həmin faylın yüklənmə sürəti də bir o qədər tezləşər.
- **Fayl mübadilə resursları (Direct Download Link, DDL).** Bu saytlar istifadəçilər tərəfindən yüklənən faylları saxlayır, amma materiala istinadı adətən faylı yükləyən yayır. Sürətin artırılması üçün istifadəçilərə premium-akaunt satın almaq təklif edilir ki, həmin akaunt uyğun olaraq faylların saxlanılmasına, yükləmə həcmi-

nə və sürətinə qoyulan məhdudiyyətləri tam və ya qismən aradan qaldırır.

- **Özəl serverlər (Own server).** Bu saytlar faylları hər hansı bir istifadəçinin şəxsi serverində yerləşdirir. Bu cür saytların xüsusiyyəti ondan ibarətdir ki, faylın özü özəl serverdə saxlanılır. Belə halda, saytın sahibi faylı silməkdən imtina edərsə, faylı silmək çox çətindir. Özəl serverləri olan pirat saytlarının sahibləri demək olar ki, ən peşəkar piratlardır.
- **Pirat saytlarının əsas gəlir mənbəyini reklamlar, ödənişli** akkauntların satışı, əsərlərin ödənişli yayılması (istifadəçilərdən sms və pul köçürmələrinin digər növləri vasitəsilə alınaraq) təşkil edir.
- Hüquq elmi və məhkəmə praktikası bir fikirdə həmrəydilər ki, uyğun internet-saytı vasitəsi ilə materialları əlçatımlı etmənin məsuliyyətini domenin administratoru daşımalıdır. Bununla yanaşı, qeyd etdiyimiz əsaslanmış və ədalətli yanaşmanın praktikada tətbiqi zamanı çox vaxt toqquşmalar yaranır. Bu toqquşmaların səbəbi pirat saytlarının bilərəkdən hüquq sahiblərinin əqli mülkiyyət hüquqlarının qanunla nəzərdə tutulan qorunma alətlərinin reallaşmasına yönələn səylərinə qarşı çıxmasıdır.
- Pirat saytlar çox vaxt elə bir mövqe tuturlar ki, hüquqların pozulmasına görə domen adının sahibi yox, məhz istifadəçilər məsuliyyət daşımalı olur, çünki materiallar üçüncü şəxslər (istifadəçilər) tərəfindən yerləşdirilir. Məhkəmələr də məhz bu cür "ört-basdır" cəhdləri ilə toqquşur. Güman edirik ki, pirat saytlarının bloka salınması və axtaranların onların istinadlarını silməsi ən təsiredici alətdir.

# IV. Gələcəyə baxarkən

(müəlliflik hüququna hörmətlə yanaşmanın formalaşması üzrə Agentliyin həyata keçirdiyi tədbirlər haqqında)

**1. Məsələnin tarixi.**

- Hələ 2009-cu ildə Agentlik İnternetdə rəqəmsal hüquqların idarə edilməsi istiqamətində dünya təcrübəsini nəzərə almaqla, yayımlanan Copyrigt obyektlərinin nüsxələri üçün nəzarət markalarının istifadəsi üzrə təkmilləşmiş, prinsipcə yeni biznes-layihə təklif etmişdi.
- Layihə beynəlxalq ekspertlərin də marağına səbəb oldu və növbəti 1,5 il ərzində Fransa, Yunanıstan, Almaniya, İspaniya, Macarıstan və digər ölkələrdən olan müəllif hüquqları üzrə görkəmli mütəxəssislərlə birgə reallaşan TWINNING-layihə böyük rezonans doğurdu. Azərbaycanın mövqeyi ÜƏMT tərəfindən dəstəkləndi və bu təşkilata daxil olduğu andan etibarən ilk dəfə 2010-cu il sentyabr ayında Azərbaycan tərəfi dünyanın bütün əqli mülkiyyət təşkilatları rəhbərlərinin iştirak etdiyi tədbirdə "Azərbaycanda müəlliflik hüquqları (imkanlar və perspektivlər)" adlı təqdimatla çıxış etdi.
- Sonrakı dövrdə, 2011-2014-ci illər ərzində layihələr, ikisi ÜƏMT ilə birgə olmaqla, 4 beynəlxalq konfransda fəal müzakirə olunmuşdu.
- İnternet İdarəçiliyi üzrə Ümumdünya Qlobal Forumunun təşkilatçıları tərəfindən Şərqi Avropanı təmsil edərək, məruzəçi qismində dəvət olunmuş Azərbaycanın nümayəndəsi "Müəlliflik hüququ və İnternet: maraqların toqquşması və kompromisin axtarışı" mövzusunda (Bakı, 2012-ci il), həmçinin Azərbaycanın Avropa Şurası Nazirlər komitəsində sədrliyi çərçivəsində 2014-cü ildə Bakıda keçirilən "Mədəniyyət və rəqəmsallaşma"

adlı beynəlxalq konfransda "Mədəniyyətin rəqəmsallaşması və rəqəmsal kopirayt" mövzusunda çıxış etmişdir.

- 2015-ci ildə "İdarəetmə və opimallaşma" adlı V Beynəlxalq elmi konfransda müvafiq mövzu ilə əlaqədar məruzələr edilmişdir.
- Həmçinin görülən işlərin nəticələri 2015-ci ildə CİSAC və IFRO ilə birgə keçirilən beynəlxalq simpoziumda da ("Kollektiv idarəetmə və rəqəmsal mühit: yeni çağırışlarla bağlı Azərbaycanın təcrübəsi" adlı təqdimat) məruzə edilmişdir. Bundan başqa, 2017-ci ildə ÜƏMT ilə birgə keçirilən "Müəlliflik hüquqlarında məhdudiyyətlər və müstəsnalar" adlı beynəlxalq Azərbaycan-ABŞ simpoziumunda "Azərbaycanın inkişafında əqli mülkiyyətin rolu" adlı təqdimat keçirilmişdir.
- Ümumiyyətlə mövcud problemlərlə əlaqədar monoqrafiya hazırlanmış və nüfuzlu beynəlxalq nəşrlərdə 7 elmi məqalə dərc edilmişdir.
- Həmçinin qeyd etmək istərdim ki, görülən işlər ciddi elmi bazaya əsaslanır və Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən dəstəklənir.
- Və ən əsası, dövlət başçısı cənab İlham Əliyevin diqqəti və dəstəyi sayəsində, yuxarıda da qeyd etdiyimiz kimi, sistemin yaradılması 2012-ci ildə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında öz əksini tapmışdır.

**2. İşlənib hazırlanmış və tətbiq olunmuş layihələr normativ-hüquqi və qanunvericilik bazasına malikdir.**

✓ 2012-ci ildə "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanun qəbul olundu, icrasına isə Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, həmin ilin oktyabr ayından başlandı, 2013-2014-ci illər ərzində bu qanunun müd-

dəalarının həyata keçirilməsini təmin edən 5 hökumət qərarı, həmçinin Mülki və Cinayət Məcəllələrinə və İnzibati Xətalar Məcəlləsinə əlavələr edildi.

- ✓ Aşağıda mövzusu əqli mülkiyyət obyektlərini yaratmaq və istifadə etmək yox, əqli mülkiyyətin pozulmasının qarşısını ala biləcək tədbirlər, prosedurlar, hüquqi vasitələri təmin edən 17 maddə və 4 fəsildən ibarət Qanunun şərti blok-sxemi göstərilir. Burada söhbət sübutların saxlanılması, informasiya hüququ, məhkəmə qərarlarından irəli gələn, müvəqqəti, aşkarlıq və s. tədbirlər əlavə edilən mülki, inzibati və cinayət qanunvericilik vasitələrindən gedir.
- ✓ Bununla yanaşı, Qanunun 3 fəsli piratçılığa qarşı mübarizədə xüsusi inzibati tədbirləri nəzərdə tutur.
- ✓ Qanun Aİ-nın «On Enforcement and IPR» Direktivinin tələblərinə cavab verir və TRİPS-in müvafiq normalarını əhatə edir.

## “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu




**3.** Xarici mütəxəssislərin fikrincə, Agentliyin ən vacib nailiyyəti müəllif hüququ obyektləri olan və distribütor şəbəkəsi vasitəsilə satılan əqli məhsulların üzərinə yapışdırılan nəzarət markalarının fərdiləşdirilməsi üzrə rəqəmsal təşkilati-texniki sistemin yaradılmasıdır. Bu layihənin unikallığı məsafədən markaların legitimliyini müəyyən və onların sonrakı aqibətini müşahidə etmə imkanı yaradan smartfonlar üçün nəzərdə tutulmuş «Track & Trace» proqram kompleksi ilə markaların rəqəmsal verilmə sistemi ilə təchiz olunmasıdır. Markası olmayan məhsullara görə böyük cərimələr nəzərdə tutulur. Nəzarət markaları kitabların, səs və görüntü daşıyıcılarının (CD, DVD), softver-daşıyıcıların üzərinə yapışdırılır. Yuxarıda da qeyd et-

diyimiz kimi, bu sistem “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Qanuna uyğun olaraq, normativ-hüquqi aktlara, yəni hüquqi əsaslara söykənərək, İnternetin müasir imkanları ilə qarşılıqlı fəaliyyət əsasında yaradılıb.

- Nəzarət markasının əsasını 15 müdafiə üsulu olan holoqram təşkil edir. Holaqram təkrar istifadədə yararsız vəziyyətə düşən metal pərdədən düzəlmiş kiçik etiketdir. Nəzarət markası şifrələnmiş məlumatla təchiz olunmuş özünəməxsus kod və seriyaya malikdir.
- Holoqram Müəllif Hüquqları Agentliyinin nəzdində fəaliyyət göstərən Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində xüsusi printerlərdə çap olunaraq, laminasiya edilir və şəxsləndirmə prosedurları hesabına nəzarət markasına çevrilir.
- Satışa və yayılmağa çıxarılan müəllif hüquqları obyektlərinin nüsxələrinə yapışdırılan nəzarət markalarının olmaması saxtakarlıq sayılaraq, inzibati və cinayət məsuliyyəti ilə nəticələnir.

Aşağıda texnikanın fotoşəkli, holoqramın fərdiləşdirilməsi və nəzarət markalarının qeydiyyatı, həmçinin mobil cihazlar vasitəsilə nəzarət markalarının yoxlanılması üzrə ümumiləşdirilmiş sxemlər göstərilir.







## Hologramların fərdiləşdirilməsi və nəzarət markalarının qeydiyyatı




## Nəzarət markalarının mobil cihazlar vasitəsilə yoxlanılması



**4. İnternetdə rəqəmsal hüquqların idarə olunması ilə əlaqəli layihənin hazırlanmasında "Copyright-ın təmin edilməsi – İnternetin əlçatımlığı" sistemində maraqların toqquşması səbəbindən Müəlliflər, Hüquq sahibləri və İstifadəçilər arasında mübahisənin yarana biləcəyi və kompromis həllin axtarışının tələb olunduğu nəzərə alınmışdır.**

- "İnternet açıqlığı – Müəllif hüquqlarının təminatı" sistemində İnternetin açıqlığı ideyasının daşıyıcısı qismində əsərlərdən sərbəst istifadə etməyə üstünlük verən İstifadəçilər, mükafatın verilməsi ilə kontentin sərbəst istifadəsinin tərəfdarı qismində əsasən Müəlliflər iştirak edir, müəlliflərin işgüzar tərəfdaşı olan Hüquq sahibləri isə hüquqların təmin edilməsi üzrə tələblərin sərtləşdirilməsinə üstünlük verirlər (tədqiqatlar da bunu təsdiq edir).
- Oyunlar nəzəriyyəsinin müasir riyazi üsullarına əl atıb, İnternetdə hüquqların idarə edilməsinə dair Azərbaycan layihəsi hazırlanarkən 3 aktorun: Müəlliflərin, Hüquq sahiblərinin və İstifadəçilərin qarşılıqlı münasibətləri nəzəri təhlil olunaraq, belə bir nəticəyə varılmışdı ki, üç simanın koalisiya oyununda daha dayanıqlı kompromis yalnız kompensasiya ödəməklə kontentin sərbəst istifadəsi şərti ilə əldə oluna bilər. Lakin bu kompromis CC açıq lisenziyalarının yaxud qanunu pozanların saytlarının bloka salınmasını nəzərdə tutan qanunvericilik normalarının əyani nümunəsi olan digər iki modelin də tətbiqini istisna etmir.
- İnternetdə kompensasiya ödəməklə kontentdən sərbəst istifadə strategiyası Azərbaycanda yaradılan rəqəmsal hüquqların idarə olunma sisteminin nəzəri platformasıdır.
- Həmçinin rəqəmsal hüquqların kollektiv idarə edilməsinin müəllif hüquqları obyektlərinin tiplərə ənənəvi böl-

güsü və konkret sahədə hüquqların kollektiv idarəçiliyinin öz mənasını itirməsi və kontentin vahid mərkəzdən idarəçilik vəzifəsini önə sürməsi ilə əlaqəli xüsusiyyətlər də nəzərə alınmışdır.

- Bununla yanaşı, nüsxələrin fərdi qiymətə bilavasitə sifarişçiyə çatdırıldığı zaman elektron ticarətin və şəbəkəyə miqrasiya etmiş müəllif hüquqları obyektlərinin bir-birləri ilə sıx əlaqəsi kollektiv idarəçiliyin təşkilində yeni yanaşmaları tələb edir.
- Rəqəmsal hüquqların kollektiv idarə edilməsinin təşkilinin üç mümkün forması təhlil edilmişdir:
  - vahid təşkilat istifadəçilərə verilən lisenziyaların əsasında təsdiq olunmuş tariflərə uyğun olaraq, təkrar istifadə hüququnu və “kütləyə çatdırılma” interaktiv hüququnu idarə edir. Bu rejim «one-stop-shops» adlanır (geniş seçimi olan mağaza və onunla əlaqədar yaranan KİT Assosiasiyası);
  - eyni ilə «one-stop-shops» rejimi, lakin lisenziyalar obyektin populyarlıq indeksinin qeydi əsasında fərdi tariflər üzrə verilir;
- “on-line” lisenziyalı «one-stop-shops» rejimi idarəçilik prosesinin avtomatlaşdırılmasını, KİT-da istifadəçilərin İnternet əlçatımlığını və təşkilatda bütün kontent üçün DRM-sistemi və fərqləndirici nişanlarla təchiz olunmuş saxlanc yerinin mövcudluğunu tələb edir.

Yuxarıda sadalanan formalardan sonuncu – daha effektiv variant kimi seçilmişdir.

- **Bundan başqa, kollektiv idarəetmə sistemində blokçeynin (Blockchain) istifadəsinin mümkünlüyü məsələsi də işlənilmişdir.**

**5. Azərbaycanda DRM-sistemi.**

◆ Sistemin məqsəd və təyinatı:

– Rəqəmsal monitorinq və qeyri-qanuni istifadənin aşkar edilməsi, E-com-un və hüquqların rəqəmsal idarə olunması, rəqəmsal kontentin və qeydiyyatın xüsusiyyətlərini əhatə edən xidmətləri təmin edə biləcək infrastrukturun (platformanın) yaradılması.
– Qeyri-maddi mədəni irs üzrə Agentliyin rəqəmsal kontentin Milli aqreqatoruna çevrilməsi üçün şəraitin yaradılması.

◆ DRM-sistemi aşağıdakı blokları əhatə edir:
– On-line rəsmiləşdirmə və qeydiyyat.
– Su işarələri vasitəsi ilə kontentin qorunması.
– Metaverilənlər əsasında rəqəmsal kontentin idarə edilməsi.
– Monitorinq və kontentin İstifadəsinin qiymətləndirilməsi.
– E-sales-in həyata keçirilməsi.

◆ Sistem hüquq sahiblərinə kompensasiyanın ödənilməsi, əsərlərin (kontentin) qanuni və qeyri qanuni istifadəsini izləmək məqsədilə həm monitorinq, həm də royaltinin fərdi şəkildə tənzimlənməsi üzrə E-shop rejimində istifadə oluna bilər. Və bu zaman hüquqların kollektiv idarə edilməsi «one-stop-shops» prinsipinə əsaslanır.

**DRM-sisteminin ümumi strukturu**



Əsərlərin rəqəmsallaşması və rəqəmsal kontent şəklində saxlanılması DRM-sisteminin mühüm hissəsidir.

Aşağıda göstərilən sxem məlumat bazasının məzmununu əks etdirir:




- Hal-hazırda məlumat bazasında 1900-dən çox əsər, o cümlədən 584 mətn, 655 audio, 225 video, 114 foto-material saxlanılır. Həmçinin burada 411 müəllif və hüquq sahibləri haqqında da məlumatlar mövcuddur. Bu baza zənginləşməyə davam edir. Bundan başqa, inteqrasiya imkanlarını nəzərə alaraq, əsərlərin qeydiyyatı üzrə "Müəllif" bazasında 10 minə yaxın nəşr olunmuş və nəşr olunmamış müəllif əsərləri saxlanılır.
- Aşağıda məlumat bazasının doldurulması və su nişanlarının vurulması prosedurlarını əks etdirən struktur sxemlər göstərilir:

# ƏSƏRİN ƏLAVƏ EDİLMƏSİ
(məlumat bazasının doldurulması)




Su işarələri (Watermark) kontentlə əlaqəli bütün fayllarda yerləşdirilir və ilkin naşir haqqında məlumat verir. Bu zaman faylların şifrəsi yalnız Müəllif Hüquqları Agentliyində bəllidir və bununla, yalnız Agentlik faylın orijinallığını (istifadənin qanuniliyini) təsdiq edə bilər.


Onlayn ödəmə
WEB Portal
e-gov.az
istifadəçi qeydiyyatı
MHA xidmətlər
Müəllifin qeydiyyat ödənişi
istifadəçinin təyin edilməsi
token ilə icazə vermək
e.copag.gov.az
İstifadəçi statistikaları
İstifadəçi portalı
Bütün statistikalar
API WEB
Azericard emal etmə
API ödəniş məlumatları
qəbul edildi və ya qəbul edilmədi
istifadəçi
qeydiyyat
e-gov.az portal
istifadəçinin təyin edilməsi
e.copag.gov.az
onlayn ödəmə
Azericard
TƏSDİQ
e.copag.gov.az
qeydiyyatdan keçirilib
Dövlət xidmətləri


İdarəetmə paneli
DRM Verilənlər Bazası
DRM portal (Bütün istifadəçilər üçün)
düzəliş et
əlavə et
sil
statistikalar
Operator
yükləmə
Şifrələr (copag tərəfindən hazırlanır)
Su nişanəsi əlavə edilir
Yaddaş (Bütün faylları saxlayır)
su nişanəsi
su nişanəsi
su nişanəsi
Şifrələnib VB'yə daxil edilir
əlavə edildi
DRM portal
(Qeydiyyatdan keçmiş istifadəçilər üçün)
ön baxışlar
şifrə yoxlayıcı
fayl yükləmək
və s.

Bununla yanaşı, Agentliyin informasiya sistemi "gov.az" portalna inteqrasiya olunmuşdur və elektron dövlət xidmətləri aşağıdakı sxem üzrə göstərilir:




**6. Fəaliyyətin gələcək istiqamətləri haqqında.**

❖ Rəqəmsal dövr bir çox yenilik gətirdi və gətirməyə davam edir. Rəqəmsal dövrün yaratdığı kontent bu gün eyni anda rəqəmsal iqtisadiyyatın həm əsas məhsuludur, həm də ehtiyatıdır, eyni ilə rəqəmsal fayl kimi – bu həm texnologiya, həm də istehsalat sahəsidir. Bu gün dünyamızda əqli mülkiyyətin fəaliyyət göstərdiyi kontekst yarandığı mühitdən prinsipcə seçilir. Bu yeni kontekst həm iqtisadiyyatda, həm də cəmiyyətdə əqli mülkiyyətin vəziyyətini dəyişərək, biliklərə əsaslanan iqtisadiyyatın dominantına, rəqəmsal cəmiyyətin vacib alətinə və mədəni irsin qorunma təminatçısına çevirir. Əqli mülkiyyət fəaliyyətinin dəyişmiş konteksti əqli mülkiyyətə və onun roluna münasibətdə bizim də düşüncə tərzimizin dəyişməsini tələb edir.

- Məhz elə bu səbəbdən **blokçeyn texnologiyasının** istifadə yollarının öyrənilməsi əsasında dövlət və özəl sektoru kooperasiyasının imkanlarından çıxış edərək, biz kollektiv idarəçiliyin desentralizasiyası ilə bağlı məsələlərin üzərində işləyirik.

**7.** Blokçeyn texnologiyaları bazası əsasında qrup nöqteyi-nəzərindən perspektivli platformalar yaradıla bilər. Yuxarıda da qeyd etdiyimiz kimi, rəqəmsal kontentin yayılma vasitələri adətən yenilənmir, ilk öncə ona görə ki, onları klassik biznes-model idarə edir. Bunun nümunəsi kimi, müəlliflik hüquqları qanunlarını göstərmək olar, hansılar ki, bir sıra mütəxəssislərin fikrincə, sahənin qorunmasına xidmət edir, amma görünən odur ki, onlar internetin mahiyyətini dərk etmirlər. Nəticədə məlumat almaq hüququ, mədəniyyət əlçatımlığı və ənənəvi sahə arasında bir sıra xoşa gəlməz vəziyyət yaranır. Və bu problem son 10 ildə “açıq ilk kodla” və ya “kopileft” adlanan yeni “azad proqram təminatı” hərəkatlarının ortaya çıxmasında əks olunur. Peyda olan bu yeni hərəkatlar müəlliflik hüququ sahəsinin biliklərin inkişafına və yayılmasına ənənəvi qoyduğu məhdudiyyətlərin aradan qaldırılması üçün müəlliflik hüququnu vasitə kimi istifadə edir.

Blokçeyn texnologiyasının tətbiqi vasitəçi olmadan əqli mülkiyyətin qeydiyyatı və yayılması üçün geniş imkanlar açır. P2P rəqəmsal kontentinin mərkəzdən asılı olmayan yayımı rəqəmsal mədəniyyət dövründə paradiqmanın yeni dəyişikliyi deməkdir.

Əqli mülkiyyətə münasibətdə **blokçeyn** məlumatların saxlanılması və ya tranzaksiyaların, mülkiyyət hüquqlarının və razılaşmaların və s. rəqəmsal reyestri, yəni ayrıca müstəqil yazıya, lazım olduqda isə yoxlanılmağa ehtiyacı olan hər şey üçün vasitə vəzifəsini yerinə yetirir.

a) P2P şəbəkələrinə əsaslanır və rəqəmsal məlumat yayımlanır, amma kopiya olunmur, yəni İnternetin yeni

növüdür, daha dəqiq desək, İnternetin əzəli vəziyyətinə qayıdışdır: heç kəsə əlavə səlahiyyətlər verilmir, bütün səlahiyyətlər bərabər şəkildə bütün iştirakçılar arasında bölünür.

b) Reyestr bir yerdə saxlanılmır, paylaşdırılır və şəbəkənin istənilən istifadəçisi reyestrin aktual versiyasını əldə etmə imkanına malikdir, yəni bütün istifadəçilər üçün reyestr tamamilə şəffafdır.

c) Blockchain (block = blok, chain = zəncir), yəni müəyyən qaydalarla cərgəyə düzülən tranzaksiya blokları zənciridir. Blokda rəqəmsal yazılar mürəkkəb riyazi alqoritmlərin köməyi ilə kriptoqrafik və xronoloji bağlarla "zəncirə" birləşir. Hər blok özündən əvvəlki ilə əlaqəlidir və yazılar yığımından ibarətdir, yeni bloklar isə bir qayda olaraq, zəncirin sonuna əlavə edilir. Şifrələmə (xeşləmə) mövcud şəbəkənin kompüterləri ilə icra olunur və əgər eyni nəticə alınırsa, onda bloka unikal rəqəmsal imza verilir. Reyestr yeniləndikdən və yeni blok yarandıqdan sonra o artıq dəyişə bilər, yəni onu saxtalaşdırmaq mümkün deyil, yalnız yeni yazılar əlavə etmək olar. Vurğulayaq ki, reyestr mövcud şəbəkənin bütün kompüterlərində eyni anda yenilənir.

d) Blokçeyn məlumatlarının paylaşma təbiəti xakerlərin müdaxiləsini praktiki olaraq imkansız edir, çünki mövcud şəbəkənin bütün kompüterlərində məlumatlar bazalarının nüsxələrini əldə etmək lazımdır. Bundan başqa, xeşləmə prosesi bərpa olunmadığı üçün texnologiya şəxsi məlumatların təhlükəsizliyini təmin edə bilir. Əgər orijinal sənəd və ya tranzaksiya gələcəkdə dəyişməli olsa, onda nəticədə onlar fərqli rəqəmsal yazıya malik olacaqlar, bu da sistemdə uyğunsuzluqdan xəbər verir.

e) **Beləliklə, nəticə**: blokçeynin məlumat bazası yalnız bir yerdə saxlanılmır, mərkəzləşdirmə yoxdur, kopiyalar eyni anda blokçeyn şəbəkəsinin bütün kompüterlərin-

də saxlanılır və hər hansı bir kompüterdə yenilənmə gedirsə, hamısında yenilənir. Beləliklə, bu şəffaflıqdır, çünki məlumatlar bütövlükdə şəbəkəyə daxil olur və deməli publikdir, həmçinin dağılmazlıqdlr, belə ki, blokçeyndə istənilən məlumat vahidinin dəyişməsi ümumiyyətlə şəbəkədəki məlumatın dəyişdirilməsi üçün nəhəng hesablama gücünü tələb edir.

**Blokçeynin ümumi fəaliyyət sxemi:**




Beləliklə, blokçeyn – mərkəzdən idarə olunmayan P2P-platformasıdır.

P2P-texnologiyaları öncə Napster, sonralar isə BitTorrent şəbəkələrinin yaranması ilə 1990-cı illərin sonunda musiqi sənayesini kökündən dəyişdirdi. Bütün sahənin miqyası üzrə dəyişikliklərin yeni mərhələsi məhz blokçeyn texnologiyasının yayılması ilə əlaqəlidir.

Əqli mülkiyyət sahəsində hansı blokçeyn-layihələr məlumdur və onların xüsusiyyətləri nədən ibarətdir?

- **DotBC layihəsi** (müəllif Bendji Rocers). Blokçeyn open-source mühitinin yaradılması üçün icra olunur, rəqəmsal yayımın populyar formatları isə bc (dot Blockchain) genişlənməsi ilə yeni formatla əvəzlənir və təkrarən istifadə edilə bilmir, bu isə nəticədə rəqəmsal reyestrin müəlliflik hüquqları və istifadə hüquqlarını izləməyə imkan verir.

- **DDEX layihəsi** (Digital Data Exchange) meta-verilənlər təchizatının standartlaşmasını təmin edir.

- **OMI layihəsi** (Open Music Iniative) – musiqinin müəllifini və həmin əsərin hüquq sahibini izləməyə imkan verən açıq mənbəli platforma.

- **Mediachair layihəsi** (təsisçilər Jessi Uolden və Denis Nazarov). Bu layihə start-up çərçivəsində hazırlanmış və hələlik test rejimində təsvirlərin saxlanılmasında fəaliyyət göstərir. Müəllif hüquqlarının qorunmasına və orijinal materialının müəllifinin axtarışına imkan yaradır. Instagram kimi resurslarla işləyərək, şəbəkənin digər istifadəçilərinin repostu anında təsvirin müəllifini göstərir. Musiqi və əlaqəli sahələrdə istifadə olunur.

- **Blockai** – müəllif hüquqlarını qoruyan Kaliforniya start-up layihəsidir.

- **Ascribe Servisi.** Blokçeyn texnologiyasını icra edən ABŞ layihəsidir.

- **Blokur** – vasitəçiləri xaric edən və icraçıların vəsaitlərini sürətlə çatdıran ABŞ layihəsidir.

- **IBM Blockchain layihəsi.** Bu layihənin bazası əsasında ASCAP (ABŞ), SACEM (Fransa), PRS (Böyük Britaniya), yəni dünyanın üç aparıcı KİT (Kollektiv İdarəetmə Təşkilatı) onun musiqili şou-biznesdə ifasının tədqiqatı üçün birləşmişdir. Müəlliflərin nöqteyi-nəzərinə əsasən, rəqəmsal bazar real vaxt rejimində hesabatın aparılması-

nı tələb edir və blokçeyn royaltilərin dəqiqliklə, tam vaxtında ödənilməsinə imkan yaradır. Məsələn, musiqi üçün eyniləşdirmənin iki əsas üsulu birləşir – səsyazısının beynəlxalq standart kodu (ISRC) və musiqi əsərlərinin beynəlxalq standart kodu (ISWC). Onlar əsərlərin şəbəkədə ifasının izlənməsini asanlaşdırır, blokçeyn isə məlumatın ötürülmə prosesini daha keyfiyyətli və sürətli edir.

- Bununla yanaşı, musiqi sahəsi üçün başqa blokçeynlər də mövcuddur: Bittunes, Ujo Music, PeerTracks platformaları, blokçeyn start-up Stem, Colu layihəsi, Waves blokçeyn-platforması, start-up Smilo və başqaları.

- Və xülasəmizin sonunda **IPCHAIN layihəsində** dayanaq. Bu layihə "Skolkovo" fondu və Rusiyanın kollektiv idarəetmə cəmiyyətləri ilə birgə işlənmişdir, onun məqsədi əqli mülkiyyət obyektlərinin idarə edilməsi üçün vahid platformanın işə salınmasıdır (Skolkovo, RMC, Rusiya Hüquq sahibləri İttifaqı (RHSİ), Ümumrusiya əqli mülkiyyət təşkilatı (ÜƏMT), "İqtisadiyyatın ali məktəbi", Sankt-Peterburq Milli informasiya texnologiyaları, optika və mexanika tədqiqatları universiteti, İqtisadi strategiyalar ETİ və "Yeni əsr" bankı). Layihə Iphub adlanan vahid texnoloji platformanın əsasında yaradılır. Bu platforma əqli mülkiyyətin müxtəlif obyektləri (müəlliflik və əlaqəli hüquqlar, patentlər, ticarət nişanları və s.) barədə məlumatı əlçatımlı edir, digər hüquq sahiblərinin ona qoşulması üçün məlumat mübadiləsi standartına malikdir. Bundan əlavə, bu layihə ənənəvi olaraq əqli mülkiyyət tərəfindən baxılmayan obyektləri dövriyyəyə daxil edir (mürəkkəb üçölçülü, informasiya modelləri, genetik redaktənin rəqəmsal təsviri, süni intellektin alqoritmləri və s.).

**Məqsəd: gələcəkdə hüquqların artıq köhnəlmiş kollektiv idarəetmə sistemini elə yeniləmək lazımdır ki, rəqəmsal platformalarla əvəzlənən vasitəçilik institutu istifadəçilərə kontent istehsalçılarına bilavasitə**

**təsir göstərmə imkanı yaratsın**. Belə olduqda KİT onlarda özünün əsərlərə olan hüquqların reyestri və hüquqların idarə edilməsi üzrə artıq hazırlanmış sistemləri ilə iştirak edir.

**8. MHAChain Azərbaycan layihəsi:**

- **MHAChain** – P2P şəbəkə bazasında blokçeyn-texnologiyasına əsaslanan platformadır. Azərbaycanda istifadə etmək üçün nəzərdə tutulan bu sistem **iki fəaliyyət rejimi**nə malikdir, onun iştirakçıları sırasına isə istifadəçilər və hüquq sahibləri (müəlliflər) daxildir.
- Sistemin qarşısında blokçeyn-texnologiyasının istifadəsi üzrə ən azı 4 vəzifə durur:
  - əqli mülkiyyət obyektlərinin, fayllarının bazası qismində iştirak etmək, mükafatların daha tez ödənişini təklif etmək, ödəniş prosesinin şəffaflığını təmin və hüquq sahiblərinə yeni maliyyə mənbəyini təqdim etmək.

Daha ətraflı desək, blokçeyn vahid və hər kəs üçün əlçatımlı musiqi əsərləri bazasının yaranmasına imkan verməlidir. **Hüquq sahibləri ilə əlaqə məlumatını və kompozisiyaların istifadəsi şərtlərini ümumi reyestrdən çox rahat əldə etmək mümkün olacaq** və bu da marağı olan şəxslərə lisenziya almaq üçün məlumatların toplanma prosesini daha da sadələşdirəcək.

Blokçeyn həmçinin müəllif mükafatlarının ödənişinin optimallaşdırılmasına da imkan yaratmalıdır. Texnologiyanın desentralizasiyası mikroödənişləri yüksək sürətlə və royaltini, o cümlədən kriptovalyuta formatında olan ödənişləri aşağı komissiya ilə təmin edəcək. Blokçeyndə həyata keçirilən "ağıllı" müqavilələr və müqavilə razılaşmaları isə vasitəçiləri zəncirdən xaric edir.

Mərkəzdən idarə olunmayan infrastrukturlar müəllif mükafatlarının ödənişində şəffaflığı daha da artırmalıdır. Blokçeyn texnologiyasının əsasında dayanan konsen-

suns mexanizmi (mərkəzdən idarə olunmayan şəbəkənin iştirakçıları qurulan blokçeynin bu və ya digər versiyasının həqiqi olub-olmadığına dair alqoritm vasitəsi ilə səs verir) hər bir ödəniş əməliyyatının yoxlanmasını təmin edir. Etibar edilən mərkəzin və ya vasitəçinin mövcudluğuna burada ehtiyac olmur.

Və, nəhayət blokçeyn hüquq sahiblərinə yeni maliyyə mənbələrinin yaranmasında kömək etməlidir. Mərkəzdən idarə olunmayan infrastrukturun şəffaflığı investorların etibarını artırmalıdır. Blokçeyndə təqdim edilən aksiyaların kriptoqrafiq analoqları olan tokenlər daha səmərəli və investisiya nöqteyi-nəzərindən daha rahat anlaşılan kraudfandinq üsulunun inkişafına təkan verir.

Nəhayət, hüquq sahibi öz layihəsi üzərində nəzarəti itirmir və investorlar anlayırlar ki, uğur əldə edildikdə onlar da müəllif qonorarından pay qazana bilərlər.

a) tamamilə mərkəzdən idarə olunmayan rejim.

- ✓ Bu variantda şəbəkə müəllif-hüquq sahiblərinin kataloqları ilə müstəsna olaraq fərdi şəkildə yüklənir (əlçatımlıq tələblərini yerinə yetirmək şərti ilə). Eyni üsulla istifadəçilər blokçeyn texnologiyası ilə P2P şəbəkəsinə daxil olaraq, əqli mülkiyyət obyektinin bu və ya digər növünün istifadəsi haqqında məlumat verir (əlçatımlıq tələblərini yerinə yetirmək şərti ilə).
- ✓ Blokçeyndə olan kontent-platforma hüquq sahiblərinin müəlliflik hüquqlarına riayət etməsinə özü nəzarət edir. Yaradılmış kontent vahidi sistemdə dərc olunur və ona blokçeyn sisteminin bütün vahidləri üzrə unikallığı avtomatik yoxlanılan kod verilir, yəni əlavə olunan hər bir yeni elementdən sonra bütün sistem yenilənir. Bu Google-un növbəti yeni səhifəsi açıldıqdan sonra axtarış sisteminin yenilənməsinə bənzəyir. Amma sözügedən sistemdə bu əməliyyatların hamısı Google nisbətən daha sürətlə baş verir, çünki bütün məlumatlar hər

hansı serverlərdə yox, blokçeyn sisteminin bütün iştirakçıları arasında paylaşdırılır. **Bu eyni anda hər bir yerdə və heç bir yerdədir.**

- ✓ Beləliklə, bu rejim heç bir vasitəçinin, o cümlədən KİT mövcudluğunu nəzərdə tutmur, nəzarət funksiyalarını isə dövlət orqanı icra edə bilər. Bu halda platforma mərkəzdən idarə edilmir, saxlama qurğuları ümumi server vasitəsi ilə işləmir və beləliklə istənilən iştirakçı öz qeydini edə bilər və bu geyd verifikasiya prosedurundan sonra şəbəkənin bütün iştirakçıları arasında əks olunacaq.

b) mərkəzləşdirilmiş idarəetmə ilə mərkəzdən idarə olunmayan reyestr rejimi.

Azərbaycanda müəllif hüquqları obyektlərinin dövlət qeydiyyatını nəzərə alsaq, göstərilən funksiyalar həm də qeydiyyatı həyata keçirən Vahid depozitariy rolunu icra edəcək Agentliyin səlahiyyətində qalır.

Ənənəvi qeydiyyat prosedurunun indi həyata keçirilən onlayn-qeydiyyatdan fərqi ondan ibarət olacaq ki, qeydiyyat blokçeyn şəbəkəsi vasitəsilə mümkün olacaq, depozitə qoyulma proseduru isə dünyanın istənilən nöqtəsində üçüncü tərəfin (Agentliyin) iştirakı olmadan qeydiyyatdan keçmiş obyekt haqqında məlumatı təsdiqləməyə imkan verəcək.

Müəllif əsərinin depozitə qoyulduğu andan obyektin xeş adlanan "siması" yaranır. Xeş onda baş verən hər bir tranzaksiya sonrası avtomatik razılaşma yolu ilə məlumatın şəffaflığını təmin edən blokçeyn-texnologiyasına əsaslanan paylaşdırılmış məlumatlar bazasına yüklənilir. Blokçeyn kifayət qədər kriptoqrafik təsdiqlənmiş kopiyalar yaratmağa imkan verir ki, onlar da şəbəkənin bütün iştirakçılarında saxlanılır, ona görə də daxil olunmuş məlumatı dəyişdirmək qeyri-mümkündür.

Depozitə qoyulmuş obyekt haqqında yazı sistemdə müddətsiz saxlanılır, onun yaranma faktını isə blokçeyn-reyestrdə xeş üzrə istənilən hər bir kəs yoxlaya bilər. Beləliklə, paylaşdırıcı reyestrə daxil edilən obyektin rəqəmsal surəti haqqında məlumat müəllifə əqli mülkiyyət hüququnun qorunması üçün sübut bazası təqdim edəcək.

c). Əqli mülkiyyət obyektləri və həmçinin onların istifadəsi haqqında məlumat vahid texnoloji platforma üzərində cəmləşəcək. Bu xidmətin həyata keçirilməsi üçün bütün müəlliflərə və hüquq sahiblərinə burada özlərinin əqli mülkiyyət obyektlərini yerləşdirmək və bu obyektlərin istifadə üsulları və hüdudlarını müəyyən etmək təklif edilir. Öz kataloqunu qeydiyyat haqqında məlumat və tələb olunan ödəniş rekvizitləri ilə birgə qeydiyyatdan keçirmiş hüquq sahibi bu məlumatları MHAChain şəbəkəsinə daxil edir, həmçinin ona çatacaq mükafatın köçürülməsinə dair kollektiv idarəetmə təşkilatları ilə müqavilə bağlayır, özü də bu avtomatik olaraq baş verəcək. Beləliklə qlobal texnoloji inkişaf və informatizasiya hüquqların fərdi idarəetmə sistemini prioritetə çevirir.

Məlumat mübadiləsinə dair hazırlanmış standart digər hüquq sahiblərinə də öz sistemlərini bu platformaya daxil etmək imkanı yaradacaq. Platforma blokçeyn-texnologiyası bazasının əsasında fəaliyyət göstərəcək: burada bütün obyektlər və onların rəqəmsal mühitdə (internetdə, TV-də, ifa olunan əsərlərin müəyyən edilməsi mümkün olan ictimai yerlərdə və s.) istifadəsi, obyektlərə hüquqların keçidi barədə məlumat olmayacaq. Gələcəkdə bu platformanın bazası əsasında hüquqların satışı üzrə birjalar yaradıla bilər, belə ki, blokçeyn obyektlərin istifadəsini izləmək və onlarla sazişlərin qeydiyyatını aparmaq imkanı yaradacaq.

**9. Nəticə.**

- Blokçeyn-texnologiyasında obyektlər peydə olan kimi, onlar haqqında informasiya elə qeyd edilir ki, bloklar bir-birindən yapışır və bu zənciri qırmaq mümkün deyil. Bu isə texnologiyanın hüquq formalaşdırma qabiliyyəti və düzgünlüyün zəmanətidir. Texnologiyaların inkişaf səviyyəsi o qədər yüksəkdir ki, planlı şəkildə hüququ məhv etməyə başlayır və texnologiyalar imkan yaradır ki, onların inkişafı üçün ənənəvi istifadə olunan hüquqlar sadəcə kökdən məhv olsun.

Mövcud əqli mülkiyyət sisteminə üç qlobal texnoloji çağırışı ayıraq.

**Birinci çağırış** ondan ibarətdir ki, yaranan yeni bilikləri qanunvericilik sənədlərində təsvir etmək mümkün deyil, çünki indi məlumat rəqəmsal formada qeyd olunur və ötürülür, ənənəvi hüquq isə mətnli məlumatla işləyir. Nümunə kimi, obyektlərin təsvirinin qəliz rəqəmsal formalarını göstərmək olar və heç bir əqli mülkiyyət təşkilatı onları qeyd etməyə qadir deyil.

**İkinci çağırış** ondan ibarətdir ki, hüquq qoruduğu obyektlərin dövriyyəsindən ayrılmağa başladı, əgər əvvəllər hüquq faktiki olaraq, maddi daşıyıcı (pencək, disk və s.) ilə birlikdə verilirdisə, hal-hazırda isə obyektlər hərəkət edir, xüsusi avadanlıqlar hesabına dünyaya açılır və belə bir halda hüquqa tələbat olmur.

**Üçüncü çağırış**a obyektin müəlliflik hüququnu itirməsini aid etmək olar. Yeni bir şey yaratmaq üçün çox böyük məlumat həcmini istifadə etmək lazımdır. Yeni dönəmə sıçrayış yalnız müəllifin müəyyən mədəni qatı qavraması nəticəsində mümkündür. Real müəllif mövcud deyil, mövcud olan sosiomüəllifdir və cəmiyyət onun mülkiyyətinin daşıyıcısı və aqreqatoruna çevrilir.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.